AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

**MUSA NƏBİOĞLU**

# SAZIMIZ - SAZBƏNDİMİZ

BAKI - 2011

**Məsləhətçi və redaktor:**
**Zəlimxan Yaqub**
**Xalq şairi**

**Rəyçi: Məhərrəm Qasımlı**
**professor**

**Musa Nəbioğlu (Musa Nəbi oğlu Çobanov).**
Sazımız – sazbəndimiz. Bakı, "Elm və təhsil", 2011. 140 səh.

*Kitab xalqımızın qədim və ölməz sənəti olan sazbəndliyə və sazbəndlərə həsr olunub.*

# *SAZBƏNDLƏRİMİZƏ BÖYÜK EHTİRAM*



*Zəlimxan YAQUB*
*Xalq şairi, AAB-nin sədri*

***Son illərdə mədəniyyətimizin, ədəbiyyatımızın və incəsənətimizin inkişafına dövlət səviyyəsində göstərilən qayğının tərkib hissəsi kimi, aşıq sənətinə də böyük diqqət yetirilir. Dövlət başçısının və ölkəmizin birinci xanımı, Millət vəkili, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın aşıq sənətinin qorunması, inkişafı və təbliği istiqamətində yorulmaz fəaliyyəti nəticəsində 2009-cu ildə Azərbaycan aşıq sənətinin YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edilməsi də elə bu qayğının nəticəsidir. Bu gün Azərbaycan aşıq sənəti dünya qeyri-maddi irsinin inciləri sırasında özünün layiqli yerini tutub, sazımızın səsi yüksək səviyyəli beynəlxalq tədbirlərdən - Parisin, Londonun və Avropanın digər şəhərlərinin möhtəşəm salonlarından gəlir.***

***Azərbaycan Aşıqlar Birliyi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyinə arxalanaraq aşıq sənətinin bugünkü problemlərinin çözülməsi, bu sənətin inkişafında böyük xidmətləri olmuş ustad sənətkarların yubileylərinin keçirilməsi, onların kitablarının nəşr edilməsi,  xatirələrinə həsr olunmuş kitabların yazılması istiqamətində mühüm işlər görür, gənc aşıq-***

***lara qayğı göstərir. Birliyimizin təsisi etdiyi "Ozan dünyası" jurnalı nəşr olunur. Ötən il işıq üzü görmüş "Ozan-aşıq dünyası" adlı kitab folklorşünaslar və geniş oxucu auditoriyası tərəfindən böyük maraqla qarşılandı. Bununla belə, aşıq sənəti ilə qoşa addımlayan, daha doğrusu, bir-biri ilə möhkəm tellərlə bağlı olan sazbəndlik kimi bir sənət sahəsi də var ki, diqqətdən kənarda qala bilməz. Zaman-zaman məşhur sazbəndlərimiz olub və bu gün də var. Ancaq nədənsə, indiyədək onlar haqqında az yazılıb, az danışılıb. "Sazımız – sazbəndimiz" adlı bu kitab bütövlükdə xalqımızın qədim və ölməz sənətinin daşıyıcıları olan sazbəndlərə həsr olunub. Kitabda XX əsrdə və hazırda bu sənətlə məşğul olanlardan söhbət açılır və müəllif çalışıb ki, mümkün qədər yaddan çıxan, unudulan olmasın. Bununla belə, heç şübhəsiz ki, barəsində bu kitabda söhbət açılmayan sazbəndlərimiz də yox deyildir.***

***"Sazımız – sazbəndimiz" kitabının böyük maraq doğuracağına inamımı ifadə etməklə, demək istəyirəm ki, bu istiqamətdə iş davam etdiriləcək, gələcəkdə bu kitabın daha da təkmilləşdirilmiş nəşri oxuculara təqdim olunacaq.***



# MÜƏLLİFDƏN

Müxtəlif dövrlərdə Azərbaycan ərazisində musiqi alətlərini hazırlayan məşhur sənətkarlar olub və indi də var. Onların arasında sazbəndlərin öz yeri, öz çəkisi var. Hazırda Bakıda və respublikamızın digər rayonlarında, soydaşlarımızın kompakt halda yaşadıqları digər ölkələrdə onlarla peşəkar el sənətkarı bu ənənəni davam etdirir.

Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaqubun** bilavasitə təşəbbüsü, məsləhəti və dəyərli tövsiyələrinin nəticəsi kimi ərsəyə gələn bu kitab bütövlükdə məhz sazbəndlərimizə həsr olunub. Çalışmışıq ki, zaman və məkan fərqindən asılı olmayaraq bütün sazbəndlər haqqında burada söz açaq. Ancaq təbii ki, bu sahədə ilk təşəbbüs olduğundan, kitabda sazbəndlərimizin hamısı haqqında söz açmaq müxtəlif səbəblərdən mümkünsüzdür və heç şübhəsiz ki, barəsində söhbət açmadığımız sazbəndlərimiz də var. Həmin sənətkarlardan, onların doğmalarından üzr istəyərək demək istəyirik ki, bu, heç də həmin sənətkarlara sayğısızlıq kimi başa düşülməməlidir. Bir ildən çoxdur ki, respublika mətbuatında, televiziya və radio verilişlərindəki çıxışlarımızda, müxtəlif tədbirlərdə dönə-dönə belə bir kitab hazırlandığı haqda məlumat vermiş və xahiş etmişdik ki, sazbəndlərimiz, yaxud onların doğmaları bu işdə bizə yardımçı olsunlar. Və biz çalışdıq ki, əlimiz çatan, sorağını aldığımız heç bir sənətkar diqqətdən kənarda qalmasın, onların hamısını oxucularımıza təqdim edək. Ancaq çox təəssüflə qeyd etmək istəyirəm ki, bu işdə elə bəzi sazbəndlərimizin özündən laqeydlik gördük. Atadan oğlu, qardaşdan qardaşı haqqında bir bilgi əldə edə bilmədiyimiz hallar da oldu.

Sazbəndlərlə bağlı bu kitab bu sahədə ilk işimiz olsa da, sonuncu olmayacaq. Ola bilsin ki, təqdim etdiyimiz ilk

nəşrdə hansısa qüsurlar olsun. Elə buna görə də bu istiqamətdə axtarışlarımızı davam etdirərək, gələcəkdə bu kitabın daha mükəmməl nəşrini oxucularımıza təqdim edəcəyik. Təbii ki, bunun üçün daha çox iş görmək lazımdır və biz həm də bu sənətin qədir-qiymətini bilən xeyirxah insanların köməyinə arxalanırıq. Oxuculardan, ozan-aşıq sənətinin həvəskarlarından, ustad sənətkarların yaxınlarından və doğmalarından xahiş edirik ki, bu işdə bizə yardımçı olsunlar, əllərindən gələni əsirgəməsinlər.

"Sazımız – sazbəndimiz" kitabının işıq üzü görməsində dəyərli məsləhət və tövsiyələri böyük rol oynayan Xalq şairi, AAB-nin sədri **Zəlimxan Yaquba**, sazbəndlər haqqında materialların toplanmasında göstərdikləri köməyə görə dəyərli ağsaqqallarımız **Abbas Mazanov, Zəki İslam** və **İsa Cavadoğluna,** sazbəndlərdən **Fərman Xuduoğlu, Kövrək Murad, Rizvan Qurbanov** və **Bafəli Adıgözəlova,** gənc tədqiqatçılar **İlhamə Qəsəbova** və **Araz Yaquboğluna**, Laçın rayon Mədəniyyət və turizm şöbəsinin müdiri **İlqar İlyasova** və Kəlbəcər rayon Mədəniyyət evinin direktoru **Akif Bayramova** minnətdarlığımı bildirirəm.

***

***QEYD: kitabda sazbəndlər haqda yazılar onların təvəllüd tarixləri ardıcıllığı ilə verilmişdir.***

# XALQIMIZIN QƏDİM VƏ ÖLMƏZ SƏNƏTİ – SAZBƏNDLİK

Simli çalğı alətlərinin yaranmasına dair bir çox əfsanələr vardır. Bir rəvayətə görə, qartalın parçaladığı heyvanın bağırsaqları ağacın budaqlarına dolaşır, quruyub tarıma çəkilmiş bağırsaq külək əsdikcə titrəyərək müxtəlif səslər verməyə başlayır və bu səsləri eşidən qədim insanlar ilk simli çalğı alətlərini yaradırlar.

Burada müəyyən qədər həqiqətəuyğunluq var. Belə ki, tarixən simli çalğı alətlərinin gövdəsi, qolu və kəlləsi müxtəlif ağac növlərindən, simləri və qoluna bağlanmış pərdələri isə müəyyən üsullarla heyvan bağırsağından hazırlanıb.

**Saz** təzənə (mizrab) ilə çalınan simli musiqi alətidir. O, ulu ozan sənətinin davamçısı olan aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir.

Türk mənəviyyatının rəmzlərindən biri olan saz və sinkretik, yəni özündə çalğı, oxuma, şeir demə, söz və dastan ifaçılığı, aktyorluq və rəqs (plastika) sənətlərini birləşdirən saz-söz sənəti Azərbaycan milli mədəniyyətinin ən qədim qatları ilə bağlıdır. Qədim türkdilli xalqlarda şaman, qam, oyun, baxşı, yanşaq, varsaq və nəhayət, ozan kimi tanınan sənətkarlar bugünkü aşığın əcdadları sayılırlar. Ozan sənəti əsrlər boyu böyük təkamül yolu keçərək aşıq sənətinə çevrildiyi kimi, qopuz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır.

Saz artıq Şah İsmayıl Xətainin dövründə (XVI əsr) indiki şəklini almışdı. Şah İsmayıl Xətainin könül oxşayan qoşmalarının birində saz belə tərənnüm edilir:

*Bir gün ələ almaz olsam mən sazım,*
*Ərşə dirək-dirək çıxar mənim avazım.*
*Dörd iş vardır hər qarındaşa lazım:*
*Bir elm, bir kəlam, bir nəfəs, bir saz.*

Azərbaycan sazı türkdilli xalqlar arasında yayılmış saz və ona oxşar alətlərdən çalğı texnikası, akustikası baxımından özünəməxsus üstünlükləri ilə seçilir. Sazın çanağı tut ağacının seçmə növlərindən, qolu isə qoz ağacından hazırlanır. Sazın hazırlanmasında hər şeydən əvvəl ağac materialının keyfiyyətinə diqqət yetirilməlidir. Məşhur sazbənd **Xudunun** oğlu, bu sənətin ləyaqətli davamçısı **Fərman Xuduoğlu** bu barədə belə deyir: "Usta gərək hər şeydən əvvəl işlədəcəyi ağac materialını seçə bilsin, hər ağacdan saz düzəltməsin. Yəni yaxşı sənətkar əvvəlcə materialı seçməyi bacarmalı, sonra işə başlamalıdır. Bu da ustadan böyük qabiliyyət tələb edir. Usta ağaca baxanda bilməlidir ki, bu ağacdan nə çıxar. Bilməlidir ki, bu ağac güneydə (dəmyə yerdə) bitib, yoxsa quzeydə (sulu yerdə). Bunların möhkəmliyində və çəkisində fərq olur. Əlbəttə, dəmyə yerdə bitən ağac daha yaxşıdır. Sazın çanağında istifadə ediləcək taxtada bunlar mütləq nəzərə alınmalıdır. Amma bəzən görürsən ki, mən də sazbəndəm deyən biri hansısa ustadın düzəltdiyi sazı götürüb yüzdə yüz hər şeyi (taxtanın qalınlığını və s.) eynilə təkrarlayır. Daha nəzərə almır ki, bu ağac hansı mühitdə böyüyüb, onun taxtasının möhkəmliyi, çəkisi necədir..."

Saz düzəltmək üçün seçilən ağacın yaşına və hansı mühitdə - quzeydə, yoxsa güneydə yetişməsinə mütləq diqqət yetirilməlidir. Ağacın yaşından çox şey asılıdır. Məşhur

sazbəndlər hər ağacdan saz düzəltməyib, keyfiyyətli ağac materialı üçün el-el, oba-oba gəzib, daha çox 80-100 yaşlı ağaclara üstünlük veriblər. Çanağın düzəldilməsində istifadə olunan tut ağacı kimi, sazın qolu düzəldilən qoz ağacının da quzeydə, yaxud güneydə bitməsi nəzərə alınmalıdır. Tut ağacı ilə qoz ağacının uzlaşması, bir-birinə uyğun gəlməsi də vacib şərtdir. Yəni müxtəlif şəraitdə yetişmiş ağaclardan taxtanı eyni qalınlıqda yonmaq olmaz. Ağacın məsamələrinə əsasən taxtanın (qabırğaların) çəkilmə istiqaməti xüsusi rol oynayır. Qabırğalarda məsamələr ya perpendikulyar, ya da maili olmalıdır. Quzeydə bitən ağacdan alınan taxta güneydə bitən ağacınkına nisbətən nazik olmalıdır. Güneydə bitən ağac yaxşı qaralır, quruduqdan sonra onu istənilən formaya salmaq olur. Quzeydə bitən ağaclar isə sulu olduğundan yaxşı qaralmır, əyilməyə meyilli olur. Adicə barmağın tərindən canına su çəkir.

Saz düzəltmək üçün seçilmiş ağacın kəsilmə vaxtı mütləq nəzərə alınmalıdır. Kəsilən ağac qabığı soyulmadan kölgədə, gün dəymədən ən azı 8-10 il qurudulmalıdır. Gərək ağac yazda torpaqdan canına su çəkməmiş kəsilsin. Ümumiyyətlə, ağacların şirəvermə dərəcəsi ən çox yanvar, fevral aylarında azalır. Çanağın hazırlanması üçün nəzərdə tutulmuş ağacı da bu aylarda kəsmək lazımdır. Bu onunla əlaqədardır ki, şirəsi çox olan ağacdan hazırlanmış çanaq bir qədər quruduqdan sonra çatlayır və yaxud deformasiyaya uğrayır. Çanaq yonulduqdan sonra uzun müddət xüsusi temperaturda, qaranlıq yerdə ən azı 2-3 il qurudulmalıdır.

İstənilən çalğı alətinin, o cümlədən sazın çanağını hazırlamaq üçün kəsilmiş ağac gövdəsini ikiyə bölüb, özəyi çıxarmaq lazımdır. Təcrübə göstərir ki, yaşı çox və özəyi boş olan ağacdan istifadə etmək məqsədəuyğundur.

Sazbəndlər **Kövrək Murad** və **Bafəli Adıgözəlov** da saz düzəltməyin vacib şərtlərindən danışarkən deyirlər ki, saz düzəltmək üçün istifadə olunan tut və qoz ağacları nə qədər yaşlı olsa, bir o qədər yaxşıdır.

Tut ağacından 50 ***sm***-lik götük kəsdikdən sonra onu 4 hissəyə bölmək lazımdır ki, tərsini, avandını biləsən. Ağacın gün döyən tərəfindən sazın sinəsi üçün istifadə etmək lazımdır. Geridə qalanlardan isə qabırğa üçün istifadə etmək olar. Yeri gəlmişkən, bəzən qabırğa düzəltmək üçün qaraağac, çinar və gilasdan da istifadə edənlər olsa da, bu ağacların heç birindən alınan taxtanın əyilmə effekti tut ağacındakı kimi olmur. Qoz ağacını isə 1 ***m*** uzunluqda kəsmək lazımdır ki, qurudarkən uclarda əmələ gələn çatları kəsib götürdükdən sonra qol düzəltmək üçün normal uzunluq qalsın. Sazı düzəldərkən hər bir hissənin ölçülərinə diqqət etmək də vacib şərtdir, yəni bunların da öz standartları var.

Beçə (qolu çanağa birləşdirən hissə), qol, aşıqlar və sazı beçəyə və içəri yamşağa birləşdirən ağac çüylər (mismar əvəzi ağacdan düzəldilən hissələr) qoz ağacından olur. Tut ağacından isə sazın çanağı – qabırğalar və sinə düzəldilir. Ana qabırğanın qalınlığı 5 ***mm*** olmalıdır, hündürlüyü isə sazın çanağının böyük və ya kiçikliyindən asılıdır. Ana sazın ana qabırğasının bir ucunda eni 12-14 ***sm***, o biri ucda isə 4-5 ***sm*** olmalıdır. Bala qabırğalar isə 5-6 ***sm*** enində olsa kifayətdir.

Saz böyük və ya kiçikliyindən asılı olmayaraq aşağıdakı hissələrdən ibarətdir: 1. Qabırğa; 2. Beçə içəri yamşaq; 3. Ağac çüylər; 4. Çöl yamşaq; 5. Xatabənd qoliçi oyma; 6. Sinə (döş); 7. Daraq; 8. Sinə xərək; 9. Baş xərək; 10. Aşıqlar (burma qulaqlar); 11. Pərdə; 12. Sim bağı; 13.

Sim; 14. Təzənə; 15. Qayış (çiyinə keçirmək üçün) bəndləri; 16. Köynək.

Çox hallarda alətin qolu və çanağın yan tərəfləri təbii sədəflə bəzədilir. Əsas saz hesab edilən tavar sazın ümumi uzunluğu 1.200 ***mm***, çanağının dərinliyi 200 ***mm*** olur. Təmiz qara sazın normal çəksi onun ölçülərindən asılı olaraq 700 qramdan 1.100 qramadək olur. Balaca sazın çəkisi isə 300-400 qram olmalıdır.

Digər simli çalğı alətlərində olduğu kimi, saz da üç əsas hissədən ibarətdir:

1. **Çanaq** (gövdə). Burada səs rezonansı yaranır, formalaşır və güclənir.

**2. Beçə**. Sazın çanağını qol hissə ilə birləşdirir.

**3. Qol**. Çanağa rezonans verən simlər qolun üstündən keçərək sol əlin barmaqları ilə hissələrə bölünür ki, bu da müxtəlif səslərin alınmasına imkan verir.

Çanağın gövdəsi bir-birinə bərkidilmiş tək sayda (adətən 9) taxta "qabırğa"lardan ibarətdir. Bu "qabırğa"lar qol ilə çanağı birləşdirən "küp" adlı kiçik hissənin üzərində yığılır.

Hazır olmuş çanağa qol əlavə edilir. Bu zaman qol ilə çanağın tarazlığına xüsusi fikir vermək lazımdır. Qol çanağa birləşdirildikdə dəqiqliyi tam saxlamaq üçün xüsusi xətkeşlərdən istifadə edilərək, qolun kəllə ilə birləşdiyi hissə 5 ***mm*** aralı qoyulur ki, simlər köklənərkən qol qabağa gəlib öz yerini alsın. Qol hissəni hazırlayarkən materialın möhkəmliyinə xüsusi fikir vermək lazımdır, çünki alət kökləndikdə güclü təzyiq altında olan qolda əyilmə (çəngəl) ola bilər.

Çanaq ilə qol birləşdikdən sonra sazın üz hissəsi quraşdırılır. 5 ***mm*** qalınlığında tut və ya qoz ağacından hazırlanmış üzlük əsasən, bəzir və ya zeytun yağı ilə yağla-

nıb bir neçə gün saxlanılır. Yağı tamamilə özünə çəkdikdən sonra o, odun üstünə tutularaq qurudulur (bişirilir). Bir neçə gündən sonra bu proses bir daha təkrar edilir. Hazır olmuş üzlük xüsusi ağac yapışqanı ilə çanağın üzərinə bərkidilir.

Sazın səslənməsi onun necə quraşdırılmasından çox asılıdır. Çanaqlar tam quruduqdan sonra onun iç və çöl tərəfləri bir qədər də yonulub hamarlanır və bundan sonra qol, kəllə və başqa hissələri quraşdırılır. Çanağın üzərində qoyulmuş böyük xərək simlərin ehtizazını qəbul edir və çanağın daxilindəki boşluğa verir. Bu boşluqda formalaşan səs dalğaları yenidən üz hissəyə qayıdır. Bu halın bir neçə dəfə təkrarı nəticəsində səs güclənir, uzanır, beləliklə, dolğun tembrli səs çalarları əldə olunur.

Alətin quraşdırılmasında, əsasən, sümükdən və balıq yağından bişirilərək hazırlanmış taxta yapışqandan istifadə edilir. Hissələr hamarlandıqdan və təmizləndikdən sonra üzərlərinə isti halda nazik yapışqan sürtülür və üst-üstə qoyularaq güclü təzyiqlə sıxılır. Bütün hissələr birləşdikdən sonra aşıqlar və pərdələr quraşdırılır.

**Qola** 16-17 pərdə bağlanılır. Sazbənd Usta Xudunun sayəsində qol, beçə və sinə pərdələri (pərdə və yarımpərdələrlə birlikdə) 23-ə çatdırılıb. Azərbaycanda ölçüləri ilə fərqlənən iri tavar sazın 11, ana sazın 9, bəzən 8 simi, ondan bir qədər yığcam orta, yaxud qoltuq sazın 6, bəzən 7 simi, kiçik cürə sazın isə 4-6 simi vardır. İlk olaraq Aşıq Əmrah Gülməmmədov sazı təkmilləşdirərərk 11 simli edib.

**Sim,** simli musiqi alətlərində, o cümlədən sazda səs rəqslərinin mənbəyidir. Qədim zamanlarda sim ağac qabığından, bitki lifi və ya heyvan (at və s.) tükündən hazırlanırdı (ASE VIII cild). Müasir dövrdə isə əsasən metal

(polad) simlərdən istifadə olunur. Metaldan olan simlər daha güclü və təmiz səs versə də, ifa zamanı barmaqla sıxarkən ipək və bağırsaqdan hazırlanmış simlərə nisbətən daha sərt olur. Bir vaxtlar simlər yüksək keyfiyyətli poladdan hazırlanıb, gümüş suyuna salınarmış. Onlar heç zaman paslanmaz və çox az halda qırılarmış.

Simlərin baş tərəfi ilgək edilərək çanağın aşağı tərəfində yerləşdirilmiş xüsusi simgirlərə keçirilir. Simgir metal, ebonit və yaxud möhkəm ağac materialından hazırlanır.

**Xərək** - simli musiqi alətlərində, o cümlədən də sazda simin səslənən hissəsini məhdudlaşdıran və simlərin rəqsini üst dekaya ötürən ağac hissədir. (ASE X cild, səh. 78) Kiçik taxta parçasından ya da mal buynuzu qırığından emal olunur. Xərək simlərin ehtizazını musiqi alətinin çanağına (gövdəsinə) ötürməklə səsi gücləndirir.

**Aşıq** simli musiqi alətlərinin kəlləsində simlərin sarıldığı zivanadır (balaca paya, qulaq). Aşıqların hazırlanması üçün ən yaxşı material armud ağacı sayılır. Ondan hazırlanmış aşıqlar kökü dəqiq saxlayır, atmosfer təzyiqinə davamlı olur.

**Pərdə** bəzi simli musiqi alətlərinin, (tar, saz, dütar, tənbur və s.) o cümlədən də sazın qoluna bağlanılan bölmədir, müxtəlif yüksəklikli səsləri bir-birindən ayırmaq üçün istifadə olunur (ASE, 7-ci cild, səh. 524). Əvvəllər qoyun bağırsağından nazik kəndir kimi eşilib emal edilib, at tükündən hazırlanıb. Son vaxtlar da isə daha möhkəm və davamlı sayılan kapron sapdan istifadə olunur. Əsas pərdələrdən hərəsinin öz adı var: baş pərdə, şah pərdə divani pərdə, beçə pərdələr və s.

Sazın simlərini səsləndirmək üçün təzənədən istifadə olunur.

**Təzənə -** albalı və gilas ağaclarının, əsasən də meşədə bitən yabanı gilas ağacının qabığından düzəldilir. (ASE IX cild, səh. 240)



# MƏHƏMMƏDƏLİ MƏHƏRRƏMOV

Bu gün sazbəndlikdən söz düşəndə Məhəmmədəli kişinin adı birincilər sırasında çəkilir. İstər aşıqlar, istərsə də sazbəndlər onu böyük minnətdarlıq hissi ilə xatırlayır, bir ustad sazbənd kimi işini yüksək dəyərləndirir, sazbəndlər üçün bu gün də örnək olduğunu vurğulayırlar.



***Sazbənd Məhəmmədəli (sağda) və aşıq Hüseyn Sarıyev***

Məhəmmədəli Abbasqulu oğlu Məhərrəmov 1893-cü ildə Naxçıvanın Şərur rayonunun Qorçulu kəndində kasıb bir ailədə anadan olub. Çox erkən yaşlarından valideynlərini itirən Məhəmmədəli 1918-1920-ci illərdə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən yaxa qurtarmaq üçün kiçik qardaşını və bir neçə yaxın qohumunu da götürərək Qazax rayonuna gəlib və burada məskunlaşıb. O dövrün çətinlikləri burada onun həyat tərzinə öz təsirini göstərib. Sazbəndliyə olan həvəsi və bu sahədəki

qabiliyyəti onu ötən əsrin 30-40-cı illərində bu sənətə gətirib çıxarıb.

İkinci dünya müharibəsi onun həyatına da təsirsiz ötüşməyib. Müharibə başlayanda yaşlı olduğundan onu döyüşən ordu sıralarına aparmasalar da, ehtiyatda olan hərbi hissəyə çağırıblar. Cəbhəyə yollanan kiçik qardaşı isə bir daha geri qayıtmayıb və qardaş itgisi onun həyatında silinməz iz qoyub.

1945-ci ildə ordudan tərxis olunduqdan sonra ailə həyatı qurub. Lakin birinci evlilikdən uşaqları olmadığından ikinci dəfə evlənib.



***Şəkildə soldan: Sazbənd İsgəndər Budaqov, usta Məhəmmədəli və qızı Xurəmzə, həyat yoldaşı Pəri, qız nəvəsi Elşad. 1971-ci il.***

Qısa müddətdə sazbənd kimi təkcə Qazaxda deyil, ətraf rayonlarda, Göyçədə və Borçalıda da məşhurlaşan Məhəmmədəli kişinin evi sənət ocağına çevrilmiş, dövrünün məşhur aşıqlarından Əmrah Gülməmmədov, Kamandar

Əfəndiyev, Hüseyn Saraçlı, Xındı Məmməd, Cəlal Qəhrəmanov, Kərəm Nəsibov, Məhəmməd Şıxlı, Şəhadət Gülməmmədov və digərləri tez-tez onun qonağı olub, düzəltdiyi sazda çalıb-oxuyublar.



Məhəmmədəli Məhərrəmovun şəyirdi olmuş sazbənd İsgəndər Budaqov həm öz ustadı, həm də adlarını çəkdiyimiz aşıqlar haqqında minnətdarlıqla söz açaraq deyir ki, onların hər biri ayrıca bir məktəb idi. Ustadının alicənablığından, səxavətindən danışaraq xüsusilə vurğulayır ki, Məhəmmədəli kişi hər şeyin yerini bilən, əliaçıq, qonaqpərvər bir kişi idi. Qapısı həmişə qonaq üzünə açıq olardı. O, belə bir əhvalat da danışır ki, bir dəfə Novruz bayramı ərəfəsində həyat yoldaşı Pəri xanım bayram bazarlığı etmək üçün Məhəmmədəli kişidən pul istəyir. Həmin ərəfədə pulu olmayan usta cavab verir ki, cəmisi 30 manat pulum var, onu götür get bazara, nə düşür al. Pəri xanım da bu pulla istədiyini ala bilməyəcəyini söyləyib, bazara getmir. Həmin günün axşamı Əmrah Gülməmmədovla Kamandar Əfəndiyev onlara gəlirlər, özü də böyük bayram sovqatı ilə...

Sazbənd Məhəmmdəli kişinin sənətkarlığı istər aşıqlar, istərsə də folklorşünaslar, aşıq sənətinin biliciləri tərəfin-

dən hər zaman layiqli qiymətini alıb. Haqqında qəzetlərdə yazılar yazılıb. Ömrünün son illərində - 1971-ci ildə Xalq şairi Hüseyn Arifin köməkliyi ilə Qazax rayonunda milli adət-ənənələrimizlə bağlı çəkilən qısametrajlı filmdə Məhəmmədəli Məhərrəmov haqqında da məlumat verilib.

1972-ci ildə dünyasını dəyişən Məhəmmədəli Məhərrəmov Qazaxda dəfn olunub. Ölümündən qırx ilə yaxın bir vaxt keçməsinə baxmayaraq bu gün də xatirəsi əziz tutulur, sazdan, sazbənddən söz düşəndə adı minnətdarlıqla anılır, böyük sənətkar olması dönə-dönə vurğulanır.



# KƏRƏM MUSAYEV



Kərəm Məhəmməd oğlu Musayev 1899-cu ildə Qərbi Azərbaycanın Vedi rayonunun Göyalsor kəndində anadan olub. 1948-1953-cü illərdə Qərbi Azərbaycandan soydaşlarımızın kütləvi deportasiyası zamanı Qazax rayonuna köçüb.

Deyilənlərə görə usta Kərəmin atası Məhəmməd kişi də sazbənd olub və o, bu sənətin sirlərini öz atasından öyrənib. Dövrünün tanınmış sazbəndlərindən olan Kərəm Məhəmməd oğlu əsasən qoz ağacından saz düzəltməsi ilə fərqlənib. Üstəlik onu digərlərindən fərqləndirən bir də o olub ki, o, bütöv saz da (el arasında buna oyma saz da deyirlər) düzəldirmiş. Onun düzəltdiyi sazlardan nadir nümunələr bu gün də ayrı-ayrı adamlarda qalmaqdadır. İki oyma saz isə nəvəsi Bayram tərəfindən babasından əziz xatirə kimi qorunub saxlanılır.

Kərəm Musayev həm oyma üsulla, həm də tut ağacından ənənəvi üsulla saz düzəltmənin sirlərini oğlu Yunisə də (bu kitabda onun haqqında da məlumat var) öyrədib.

Usta Kərəm Musayev 1974-cü ildə Ağstafa rayonunun Səməd Vurğun qəsəbəsində vəfat edib.

# MƏHƏMMƏD BAYRAMOV



Məhəmməd Mahmud oğlu Bayramov 1915-ci ildə Borçalıda – Başkeçidin Hamamlı kəndində anadan olub, bu kənddə yaşayıb fəaliyyət göstərib. Ömrünün əlli ilə qədərini poçt şöbəsinin müdiri vəzifəsində çalışıb.

Məhəmməd Mahmud oğlu eyni zamanda sazbəndliklə də məşğul olub, sazbənd kimi Borçalıda tanınıb. Müasirləri bir sazbənd kimi onun sənətkarlığını yüksək dəyərləndirirlər. Borçalının ünlü aşıqları Əmrah Gülməmmədov, Kamandar Əfəndiyev, Əhəd Adıgözəlov, Dəllər Əli, Əhməd Sadaxlı və başqaları da onun əl işini bəyəniblər.

Usta Məhəmməd öz sənətini qardaşı Novruza və oğlu Valehə də öyrədib.

Sazbənd Məhəmməd Bayramov 1998-ci ildə Hamamlı kəndində dünyasını dəyişib.

# MUSTAFA VƏLİYEV



Mustafa Qara oğlu Vəliyev 1923-cü ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. O bir yaşında ikən – 1924-cü ildə atası Qara kişi vəfat edib və yetimliyin dadını çox erkən görən Mustafa bundan sonra Aşağı Əskipara kəndində dayılarının yanında yaşayıb.

İlk təhsilini də burada alan Mustafa Qara oğlu 1938-ci ildə Aşağı Əskipara kəndində natamam orta məktəbi bitirdikdən sonra təhsilini Qazax Pedaqoji texnikumunda davam etdirib. 1941-ci ildə texnikumu bitirdikdən sonra Yuxarı Salahlı kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb, sonradan burada məktəb direktoru vəzifəsində çalışıb. O vaxtlar Sovet-alman müharibəsi getdiyindən pedaqoji fəaliyyətini yarımçıq qoymalı olub. Belə ki, 1942-ci ildə o, cəbhəyə yollanıb, Mozdok uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüşlərin birində yaralandığından elə həmin il ordudan tərxis olunub.

Mustafa Vəliyev cəbhədən qayıtdıqdan sonra yenidən pedaqoji fəaliyyətini davam etdirib, Xanlıqlar və Aşağı Əskipara kənd orta məktəbində müəllim, dərs hissə müdiri və direktor vəzifələrində çalışıb. Bir müddət çalışdıqdan sonra təhsilini davam etdirərək Qazax Dövlət Müəllimlər İnstitutunu (Qazax seminariyası) və Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib.

1952-ci ildə Azərbaycan KP Qazax rayon komitəsində təlimatçı vəzifəsinə irəli çəkilən Mustafa Vəliyev iki il bu vəzifədə çalışdıqdan sonra 1954-cü ildə Aşağı Əskipara kəndindəki kolxoz partiya komitəsinin katibi vəzifəsinə seçilib. Üç il də bu vəzifədə çalışdıqdan sonra 1957-ci ildə yenidən pedaqoji fəaliyyətə qayıdaraq ömrünün sonunadək Aşağı Əskipara kənd orta məktəbində riyaziyyat müəllimi kimi gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olub.

Hələ uşaq yaşlarından saza-sözə böyük həvəs göstərən Mustafa Qara oğlunu dayısı tez-tez özü ilə məclislərə aparıb. Belə məclislərdə aşıqların ifalarını dinləməsi onun bu sənətə vurğunluğunu daha da artırıb. Sonradan bu həvəs onu sazbəndliklə məşğul olmağa sövq edib. Onun sazbəndliyə gəlişinin özünəməxsus tarixçəsi var. Belə ki, 1960-cı ildə özünə saz bağlatdırmaq üçün məşhur sazbənd Məhəmmədəlinin yanına gəlir və ustanın yanına gəlib-getdikcə sazın düzəlməsi prosesində onun işinə diqqət edir, sazbəndliyin sirlərini öyrənməyə can atır və şəyird kimi ona qulluq edir. M.Vəliyevin gözəl əl qabiliyyətinə, ədəb-ərkanına yüksək qiymət verən usta Məhəmmədəli onu doğma övladı kimi sevir, bir sazbənd kimi yetişməsi üçün əlindən gələni əsirgəmir. Beləcə, ömrünün sonunadək pedaqoji fəaliyyət göstərən Mustafa müəllim el arasında həm də sazbənd, saz ifaçısı kimi də tanınır. Hələ gənc yaşlarından şeir yazması isə ona eldə-obada şair kimi də şöhrət qazandırır. Onun çoxlu sayda şeirləri və Aşıq Şəmşirlə deyişmələri vardır.

Daim onunla ünsiyyətdə olan, sazbəndliklə bağlı maraqlı söhbətlər edən folklorşünas alim, professor Mürsəl Həkimov "Aşıq sənətinin poetikası" adlı kitabında yazır: "Saz qart tut ağacından hazırlanır. Saz üçün tut ağacının seçilməsi, kəsilməsi, onun kürədə qarsalanması texnikası

haqqında məlumatı biz mərhum sazbəndlər - Qazax şəhər sakini usta Məhəmmədəlidən, Aşağı Əskipara kənd sakini sazbənd usta Mustafadan (o, riyaziyyat müəllimi, həm də çox istedadlı şair, peşəkar ifaçı aşıq idi), Tovuzda sazbənd usta Xududan...... yazıya almışıq”.[1]

Mustafa Qara oğlu Vəliyev 1987-ci il iyunun 22-də Aşağı Əskipara kəndində vəfat edib.

***Mustafa Vəliyevin bir neçə şeirini oxuculara təqdim edirik.***

## OLAR

Çox ah-uf etməklə yara sağalmaz,
Dağlar başı duman, çiskin, qar olar.
Sən çalış, işini haqq ilə apar,
Haqqın özü sənə müdəm yar olar.

Sən fani dünyanın fəndinə baxma,
Aldanıb hər sözə, su kimi axma.
Könlünü tox eylə, gözünlə baxma,
Dost bağında alma, heyva, nar olar.

Şirnikmə dünyanın dövlət-malına,
Uyma gözəllərin xətti xalına.
Acısan kimsəsiz, yoxsul halına,
İşin düz gətirər, bəxtiyar olar.

---

[1] M.Həkimov. “Aşıq sənətinin poetikası”. Bakı, “Səda” nəşriyyatı, 2004, səh. 499.

Ey Mustafa, dostun, düşmənin tanı,
Hər üzə güləndə etibar hanı?
Adamın olmasa əsli, ad-sanı,
Düşər el gözündən, tamam xar olar.

## MƏNİM

Yeridim, yüyürdüm dostlara çatam,
Mövlam özü tutdu əlimdən mənim.
Hamını özümə dost, qardaş bildim,
Kimsə inciməmiş dilimdən mənim.

Cavan ikən mən yapışdım hər işdən,
Əl götürdüm tərəddüddən, təşvişdən.
Şikayətim yoxdur çərxi-gərdişdən,
Nə də ki, ayımdan, ilimdən mənim.

Gəzdim azadə dağı, aranı,
Mənə ləzzət verdi qarı, boranı.
Mustafayam, gördüm aravuranı,
Elə bil qırdılar belimdən məni.

## OLUBDU

Ala gözlüm, bil ki, sənsiz
Günüm ahu-zar olubdu.
Pozulubdu laləzarım,
Dünya mənə dar olubdu.

Tənhalıq çox əsər etdi,
Bil, Məcnundan betər etdi.

Bir tərlanım uçub getdi,
Qulaqlarım kar olubdu.

Yada düşdü şən oylaqlar,
Səfalı, sərin bulaqlar.
Qoşa gəzdiyimiz dağlar
Bizə səfakar olubdu.

Zimistana döndü yazım,
Qələm tutmur əlim, yazım.
Könül açan telli sazım
Mənə vəfadar olubdu.

Mustafayam, doğru sözüm,
Ayrılığa necə dözüm?
Hərdənbir ağlayan gözüm
İndi peşəkar olubdu.

# İSMAYIL MAHİR

İsmayıl Bahan oğlu Nağıyev 1925-ci ildə Göyçə mahalının İnəkdağı kəndində anadan olub. O, el arasında sinədəftər aşıq, el şairi və mahir sazbənd kimi şöhrət tapmışdı. Uşaq ikən ata və anasını itirən balaca İsmayıl Gəncədə yaşayan bacısı Zibərin himayəsində böyümüşdür. 17 yaşında ikən yenidən Göyçə mahalına qayıtmış, Dədə Ələsgər ocağında Aşıq Talıbdan və Aşıq Nəcəfdən 5 il dərs almışdır. Ustadları onu yüksək qiymətləndirmişlər və o, “Mahir” təxəllüsünü qazanmışdır.

Tərlan Göyçəli “Göyçə aşıq məktəbi” kitabında İsmayıl Mahir haqqında yazır: “Ələsgər ocağından kamil dərs alan, sazın sirlərinə mükəmməl yiyələnən sənətkar bənzərsiz çalğısı, əfsunlu oxuması ilə aşıq ifaçılıq sənətində öz dəsti-xəttini yaradıb, bir müddətdən sonra taleyini birdəfəlik Gəncə şəhərinə bağlamışdır.”

İsmayıl Mahir həmçinin “İsmayıl və Qəmzə” dastanının yaradıcısıdır.

Gəncə şəhərində və ətraf bölgələrdə sazbənd kimi də mahir sənətkar olan İsmayıl Nağıyev 1995-ci ildə Gəncə şəhərində vəfat edib.

# DÜNYAMALI XƏLİLOV



Dünyamalı Bayram oğlu Xəlilov 1925-ci ildə Qərbi Azərbaycanda – Ağbabanın Amasiya bölgəsindəki Balıqlı kəndində anadan olub. Orada orta məktəbi bitirdikdən sonra təhsilini İrəvan Dövlət Pedaqoji İnstitutunda davam etdirib. Ali təhsilini başa vurduqdan sonra Amasiyanın Qarabulaq kəndində pedaqoji fəaliyyət göstərib.

1947-ci ildə Borçalının Ağməmmədli kəndinə köçən Dünyamalı Bayram oğlu böyük ustad aşıq Əmrah Gülməmmədovla tanış olub. Bu tanışlıq onun saza, sözə olan marağını daha da artırıb və o, bu sənətin sirlərinə bələd olmağa çalışıb. Görünür burada onun vaxtilə Türkiyəyə köçmüş aşıq dayılarının da təsiri az olmamışdır. Oğlu, bu gün sazbəndlər arasında özünəməxsus yeri olan Elbəyi Xəlilov deyir ki, mən gözümü açandan atamı aşıqlıq edən gördüm.

XX əsrin 50-ci illərinin sonlarından Dünyamalı Xəlilov sazbəndliyə meyl edib və qısa müddətdə bu sənətə elə bağlanıb ki, ondakı bu həvəsin ötəri olacağını düşünənlər də yanıldıqlarını görüblər. Bu işə onda marağı kimin yaratması, daha doğrusu, sazbəndliyin sirlərini kimdən öyrənməsi bəlli olmasa da, bir şey məlumdur ki, qısa müddətdə bir sazbənd kimi onun şöhrəti Borçalının hüdudlarını aşıb. 1961-ci ildə daimi yaşamaq üçün Marneuli şəhərinə köməsi isə onun sənət əlaqələrinin genişlənməsi üçün yeni imkanlar açıb. Borçalının və ətraf bölgələrin məşhur ustad aşıqları tez-tez onun qonağı olublar.

Bu gün sazbəndlikdən söz düşəndə adı minnətdarlıqla xatırlanan Dünyamalı Xəlilov 1997-ci ildə Borçalıda – Marneuli şəhərində vəfat edib.

# YUNİS MUSAYEV



Yunis Kərəm oğlu Musayev 1928-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Gölaysor kəndində anadan olub. 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların kütləvi deportasiyası zamanı Qazax rayonunun Kalinin kəndində (indiki Ağstafa rayonunun Səməd Vurğun qəsəbəsində) məskunlaşıb.

Yunis kişi sazbəndlər ailəsində böyüyüb. Belə ki, onun atası və babası da sazbənd olublar. Bu sənətin sirlərini də atası usta Kərəmdən (barəsində kitabda məlumat verilir) öyrənib.

Sazbəndliklə yanaşı, başqa sahələrdə də çalışan Yunis Kərəm oğlu həmişə aşıqların yanında olub. Sazbənd kimi müstəqil fəaliyyətə isə 1975-ci ildən başlayıb.

Mükəmməl saz bağlamaqla yanaşı, o, həm də çalışıb ki, bu sənətin davamçıları olsun, əsrlərdən əsrlərə keçsin. Ona görə də yeniyetmələr və gənclər arasında sazbəndliyə meylin güclənməsinə çalışıb, bu sahəyə həvəsi və meyli olanlara əlindən gələn köməyi, dəyərli məsləhətlərini əsirgəməyib. Bir neçə şəyird yetişdirib. Şəyirdlərindən ən çox bəyəndiyi isə Qazaxın Yuxarı Salahlı kəndindən olan Bəkir olub.

Usta Yunis həm də sazda çox gözəl çalıb-oxuyub. Aşıq Sultanəli Rzayev onun şəyirdi olub.

Yunis Musayevin oğlu Bayram atasından sazbəndlik sənətinin sirrlərini öyrənib və bu gün onun işini uğurla davam etdirir. O, eyni zamanda ustad aşıqlardan sazın bütün sirlərini öyrənməyə çalışaraq həm da ifaçı kimi tanınır.

Usta Yunis 2010-cu ilin dekabrında vəfat edib.

# NOVRUZ ŞAİROV



Novruz Süleyman oğlu Şairov 1929-cu il aprelin 24-də Göyçə mahalının Daşkənd kəndində anadan olub. Daşkəndli məşhur şair Məmmədhüseynin nəticəsidir.

Hələ uşaqlıqdan saza-sözə çox böyük marağı olan Novruzun ustadı böyük qardaşı Aşıq Abbasəli olub.

Aşıq Novruz ailəsi ilə birlikdə 1941-ci ildə əvvəlcə Gədəbəy rayonuna, bir müddət burada yaşadıqdan sonra isə Şəmkirin Dağ Tatarı kəndinə köçübdür.

1953-cü ildə ata-baba yurdu olan Göyçə mahalından həmkəndliləri və qohumları deportasiya olunduqdan sonra 1954-cü ildə o da Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşıb.

1955-ci ildə ailə həyatı quran Aşıq Novruzun ailəsində dörd oğul, dörd qız böyüyüb.

O, 1956-cı ildən ömrünün axırına qədər Bərdə rayonunda Mədəniyyət evinin üzvü olub, dəfələrlə radio və televiziyada çıxış edib. Bu gün də onun lent yazıları Azərbaycan Dövlət Televiziyasının qızıl fondunda saxlanılır.

1985-ci ildə belə çəkilişlərin birində Aşıq Novruz Xalq şairi Xəlil Rza ilə görüşüb. Aşıq Novruzun saz çalıb-oxuması Xəlil Rzanın könlünü çox oxşadığına görə elə

oradaca «Aşıq Novruz» rədifli qoşmanı yazıb ona hədiyyə edib.

Aşıq Novruz eyni zamanda 1986-cı ildən 1992-ci ilə qədər Bərdə şəhər 1 saylı Musiqi məktəbində dərs deyib.

Uzun müddət sazda çalıb-oxuyan, ifaçı və yaradıcı aşıq kimi tanınan Aşıq Novruz həm də sazbənd olub.

Tədqiqatçı Araz Yaquboğlu Aşıq Novruzun sazbəndliyi haqqında yazır: "Sazın hazırlanmasını Aşıq Novruz əla bacarırdı. Bu sənəti özü-özlüyündə öyrənmişdi. O, heç vaxt düzəltdiyi sazı satmaq üçün bazara çıxartmazdı. Belə ki, onun sazlarını elə gəlib emalatxanasından alardılar. Onun düzəltdiyi sazlar bu gün də Bərdə, Tərtər, Yevlax, Ağcabədi və Gəncədə aşıqların, bu sənətin vurğunlarının sinəsindədir. Düzəltdiyi sazlara müştərinin istəyinə əsasən xüsusi zövqlə naxışlar da vurardı. Saz düzəltmək üçün materiala xüsusi önəm verər, hətta təzyənə (mizrab) düzəltmək üçün də materialı özü axtarar və ancaq yaxşılarından istifadə edərdi.

Novruz kişi sazı kiçik oğlu İnqilabla birlikdə düzəldərdi. Bunda həm də məqsəd onun da bu sənəti öyrənməsi idi. İnqilab bu sənəti yaxşı mənimsəsə də, Novruz kişinin vəfatından sonra demək olar ki, bu yolu davam etdirmir".

Aşıq Novruz 2000-ci il noyabrın 3-də Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

# ASLAN KOSALI



Aslan Kosalı (Aslan Musa oğlu Mirzəyev) 1929-cu ildə Gürcüstanda – Qarayazının Kosalı kəndində andan olub. Hələ körpəlikdən saza-sözə meyil salıb. Özünün dediyinə görə onda bu sənətə meyli o vaxtlar Kosalı kəndindəki məktəbdə müəllim işləyən Sədi bəy Arif (Müftizadə) yaradıb. Əslən Cənubi Azərbaycandan olan və on il Kosalıda yaşayan Aşıq Yadullanı uzun müddət dinləməsi də təsirsiz qalmayıb. İlk dəfə sazda çalmağı isə ona Xozeynin (Qurban ağanın) oğlu Musa öyrədib. Az-çox sazda çalıb-oxumağa başlayandan sonra isə həyatını birdəfəlik bu sənətlə bağlayan Aslan Mirzəyev 1952-ci ildə ustad aşıq Alxan Qarayazılının yanına gələrək ona şəyird olub. İki il ona qulluq etdikdən sonra 1954-cü ildə ustadı onu özü ilə birlikdə böyük məclislərə aparıb.

Artıq 60 ildir ki, bu sənətdə, necə deyərlər, külüng vuran Aslan Kosalı el şənlikləri ilə yanaşı, Azərbaycanda və Gürcüstanda dövlət tədbirlərində, festivallarda iştirak edib, Türkiyədə və İranda olub, Fəxri fərmanlara və digər mükafatlara layiq görülüb. 2001-ci ildə Gürcüstan Prezidentinin fərmanı ilə bu ölkənin "Şərəf" medalı ilə təltif olunub.

Bu gün təkcə Gürcüstanda və Azərbaycanda deyil, həm də qardaş Türkiyə və İranda da ustad aşıq kimi tanınan Aslan Kosalı eyni zamanda bədii yaradıcılıqla da məşğuldur. Qoşma, müxəmməs, təcnis və gəraylıları dövrü mətbuatda nəşr olunur, işıq üzü görmüş kitabı oxucular tərəfindən rəğbətlə qarşılanıb.



***Şəkildə soldan: İmran Həsənov, Alxan Qarayazılı və Aslan Kosalı.***

Azərbaycan Aşıqlar Birliyinin üzvü olan A.Kosalı 2010-cu ildə Bakıda keçirilən I Beynəlxalq Aşıq festivalında da uğurla iştirak edib.

Aşıq Aslan Kosalının dörd oğlu – Oruc, Novruz, Bəhruz və Pərviz də sazda gözəl ifa edirlər.

Ustad aşıq kimi tanınan Aslan Kosalı eyni zamanda sazbənddir. Hələ cavanlığından aşıqlıqla yanaşı sazbəndliklə də məşğul olub, ustad aşıq olmaqla bərabər Qarayazıda sazbənd kimi də sayılıb-seçilir.

***Aslan Kosalının iki şeirini  oxuculara təqdim edirik*.**

## KİMİ

***Aşıq Alxan Qarayazılıya***

Bir kamil ustada qulluq eylədim,
Özümü saydım qabağında qul kimi.
Çalışıb qazandım etimadını,
Hörmət etdi mənə bir oğul kimi.

Şeirlər oxudu, söylədi dastan,
Halı etdi məni hər havacatdan.
Dini açıqladı, öyrətdi Quran,
Mən də ləhcələndim bir bülbül kimi.

Ustad əməyilə yol-ərkan aldım,
Qeyrətlə, namusla təmiz dolandım.
Öz adımla, zəhmətimlə ucaldım,
Qeyrisinə sarılmadım çul kimi.

Yaxşını anladım, yamanı bildim,
Elimi, obamı sevdim, sevildim.
Xalq içində Aşıq Aslan deyildim,
Pöhrən atdım, ətir saçdım gül kimi.

## DOSTUM, EVİN ABAD OLSUN

Dostum, evin abad olsun,
Ayağının sayasından,
Güllər açsın, ətir saçsın
Şəbnəmlərin mayasından.

Günahlardan paklanmışam,
Həqiqətdən şəklənmişəm,
Bir az da mən yüklənmişəm
Dərdin, qəmin tayasından.

Aranımız var, yox dağımız,
Çətin olur xoş çağımız.
Keyikibdir qulağımız
Boş vədlərin laylasından.

Aslan, nədir bu hərəkət,
Pirimizdə yox kəramət.
Nə din qaldı, nə bərəkət,
Üzümüzün həyasından.

# AYAZ ZÜLFÜQAROV



Ayaz Zülfüqarov 1931-ci ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Orta məktəbin 4-cü sinfinə qədər oxuyub, sonra isə peşə məktəbində təhsil alıb və "Neft Daşları"nda neftçi Qurbanın briqadasında çalışıb.

O, bir müddət qaynaqçı işləyib, sonra da həyatda öz istədiyi sahə ilə, yəni saz çalmaqla məşğul olub. Aşıq Ayazın ustadı Aşıq Bəhram olub.

Aşıq Ayaz saz çalmaqla bərabər həm də sazbəndliklə məşğul olub. Bu sənətin sirlərini Qazax mahalında kamil sazbənd kimi tanınan Məhəmmədəlidən öyrənib.

O, 1982-ci il oktyabrın 21-də dünyasını dəyişib.

# ƏLİ ABBASOV



Əli Oruc oğlu Abbasov 1931-ci ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. Atası Oruc kişi dəmirçi olsa da, saz-söz adamları ilə dostluq edib, aşıqlar və digər sənət adamları yanına tez-tez gəlib-gediblər. On bir yaşından atasının yanında işləməyə başlayan Əli Abbasov da atasının sayəsində saz-söz adamları ilə tez-tez ünsiyyətdə olub, onların maraqlı söhbətlərinə qulaq asıb. Get-gedə onda saza, aşıq sənətinə maraq yaranıb. Əli kişi o illəri xatırlayaraq belə deyir: "Atamın dəmirçixanasına araba düzəldərkən istifadə etmək üçün tut ağacı da gətirirdilər. Məndə də saz düzəltməyə böyük maraq yaranmışdı. Odur ki, günlərin birində saz düzəltmək qərarına gəldim, tut ağacından olan taxtaları yonub qabırğalar, qoz ağacından isə qol düzəltdim. Düzəltdiyim ilk sazın səsi yaxşı çıxmırdı. Çünki asan əyilsin deyə taxtaları islatmışdım, get-gedə quruduqca isə səs istədiyim kimi alınmırdı".

Sonradan Göyçay Kənd Təsərrüfatı texnikumunu bitirən Ə.Abbasov Tovuz rayonunda ixtisası üzrə çalışdığından bir müddət sazbəndliklə məşğul olmayıb. 1980-ci ildə yenidən sazbəndliyə başlamaq qərarına gəlsə də, bu, uzun sürməyib. Belə ki, 1983-cü ildə Ukraynada hərbi xidmətdə olan oğlu həlak olduğundan əlinə saz almayıb,

sevimli sənətindən ayrı düşüb. Bu hadisədən 10 ilə yaxın bir vaxt keçəndən sonra bir gün qızı Arzu onun toz basmış sazını gətirərək deyib:

- Ata, Allahın işinə qarışmaq olmaz. Bir qəza idi, başımıza gəldi. Bu sazı nə vaxtadək əlinə almayacaqsan?

Elə o gündən Əli kişi yenidən sevimli sənəti ilə məşğul olmağa başlayıb. Hazırda Tovuz şəhərində yaşayıb fəaliyyət göstərir. İndi Tovuzla yanaşı ətraf rayonlarda və qonşu Gürcüstanda da onu sazbənd Əli kimi yaxşı tanıyır və gəlib ona yeni saz sifariş verir, köhnə sazlarını təmir etdirirlər. Əli kişi deyir ki, Aşıq Əsədin 1938-ci ildə düzəldilmiş sazını da o təmir edib, təzələyib.

Usta Əli həm də yeniyetmə və gənclərdə aşıq sənətinə, saza və sazbəndliyə marağın artırılması üçün əlindən gələni əsirgəmir. Nəvələri Elçin və Elvin də saz çalmağı bacarır, babalarının sənətinə maraq göstərirlər.

# XUDU MAHMUDOV



Xudu (Xudaverdi) Yusif oğlu Mahmudov 1932-ci il may ayının 10-da Tovuz rayonunun Yanıqlı sovetliyinin Məşədilər kəndində dünyaya gəlib. Onun atası öz dövrünün tanınmış ustalarından olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Gəncə Pedaqoji İnstitutunda davam etdirib. Ali təhsilini başa vurduqdan sonra rayonun Məşədilər kəndində pedaqoji fəaliyyətə başlayıb.

1950-ci ildən ağac ustalığına meyil salan Xudu Yusif oğlunun bu həvəsi onu sazbəndliyə gətirib çıxarıb. Bu barədə danışarkən rəhmətlik Xudu kişi deyərmiş ki, hər gecə yuxumda görürdüm ki, saz düzəltməklə məşğulam. Sonradan yuxuları çin olur və o, həqiqətən sazbənd kimi tanınır. Özü də bu gün də adı minnətdarlıqla xatırlanan, sənətinə böyük hörmətlə yanaşılan bir sazbənd kimi. Deyilənə görə, o, ilk dəfə düzəltdiyi sazın sonuncu qabırğasını

yerinə bərkitməkdə çətinlik çəkir. Qonşu Tatar kəndindən olan aşıq Nuru bunu eşidir və gənc Xuduya məsləhət və tövsiyələrini verir. Sonradan düzəltdiyi sazları Tovuz rayon mərkəzində aşıqların yığıncağında görənlər onun əl işinə heyrət edirlər. Tezliklə onun sorağı Tovuz rayonunun hüdudlarını aşır. Gəncə, Şəmkir, Qazax, Ağstafa, Gədəbəy və digər rayonlarla yanaşı, sorağını alan Göyçə və Borçalı aşıqları da ona müraciət edirlər. Sazbənd kimi məşhurlaşır, sorağı Türk dünyasının hər tərəfinə - Türkiyəyə, İrana, Orta Asiya ölkələrinə də yayılır.

Onun düzəltdiyi saz həm estetik gözəlliyi, həm də səsi ilə həmişə seçilib. Məşhur aşıqlar, saza-sözə böyük marağı olanlar saz sifariş etmək, yaxud sazlarını təmir etdirmək üçün ona müracit edib, usta Xudunun sığalından çıxmış saza üstünlük veriblər.

Uşaq vaxtlarından atasının sənətinə böyük maraq göstərən Fərman Xudu oğlu bu gün onun yolunu uğurla davam etdirir. Hələ 1990-cı ildə ata və oğulun birgə əl işi olan saz Türkiyənin o zamankı prezidenti Turqut Ozala hədiyyə edilib.

Ömrünün 60 ilə qədərini sazbəndliklə məşğul olaraq bu qədim sənətimizin inkişafına mühüm töhfələr verən, bu sənətin tarixinə adını qızıl hərflərlə yazan Xudu Mahmudov 2004-cü il fevralın 10-da dünyasını dəyişib.

# YƏHYA MƏMMƏDOV



Yəhya Məcidəli oğlu Məmmədov 1932-ci ildə Tovuz rayonunun Aşağı Ayıblı kəndində anadan olub. Hələ uşaqlıqdan saza-sözə meyil salıb, müstəqil olaraq saz çalmağı öyrənib. Əvvəlcə Aşağı Ayıblıda, sonra isə Tovuz rayonunda özünün gözəl ifası ilə tanınıb.

Sonradan onda sazbəndliyə həvəs yaranıb və o, bu sənətin sirlərini öyrənməyə başlayıb. Məşhur sazbənd usta Xudu ilə dostluğu da onun bir sazbənd kimi püxtələşməsində mühüm rol oynayıb.

Şair İsa Cavadoğlu həmyerlisi Yəhya Məmmədovun sənətkarlığından ağızdolusu danışır. O, qeyd edir ki, sazbənd Yəhyanın düzəltdiyi sazları Tovuzun məşhur aşıqları İmran, Mahmud, Xanlar, Əli, Şəmkirdən Murad Niyazlı, Gədəbəy aşıqlarından İsfəndiyar, Dəmir, Rasim, Naxçıvandan Muxtar, Borçalı və Qarayazı aşıqları, eləcə də özünün həmkəndliləri olan aşıqlardan Məcid, Kaloğlan, Dəmir, Süleyman, Əvəz, Əsgər və başqaları yüksək qiymətləndirmişlər.

Yəhya Məmmədov 1995-ci ildə vəfat edib.

## VƏLİ ƏMRAHOV



Vəli İsrafil oğlu Əmrahov 1933-cü ildə Tovuz rayonunun Qaraxanlı kəndində anadan olub. Kənddəki yeddiillik məktəbi bitirdikdən sonra kolxozda çoban kimi əmək fəaliyyətinə başlayıb.

1952-ci ildə hərbi xidmətə çağırılan Vəli Əmrahov 1955-ci ildə ordu sıralarından tərxis olunduqdan sonra Mingəçevirdə paravoz sürmək kursunda oxuyub. Bu kursu bitirdikdən sonra isə kəndə qayıdaraq enerji generatorunda motorçu işləyib. El arasında Motor Vəli kimi tanınması da bu fəaliyyəti ilə bağlıdır.

Hələ kolxozda çoban olduğu vaxtlardan şeirə-sənətə böyük həvəsi olan Vəli İsmayıl oğlu təbi gələndə şeir də yazıb. Hətta heç bir usta yanında olmasa da, özünə saz da düzəldib, çalıb-oxuyub. Sonradan məşhur sazbənd usta Xudu ilə dostluğu onu sazbəndliyə daha möhkəm bağlayıb, ondan bu sənətin sirlərini öyrənib, sənət aləminə daha yaxından bağlanıb. Tovuzlu şairlərdən Həsən Mülkülü, Fətəli, Abbasəli ilə, aşıqlardan Vəli və Ələkbərlə və usta Müzəffərlə daim yaxın ünsiyyətdə olub, dostluq edib.

Vəli Əmrahov 1999-cu ildə vəfat edib.

## NOVRUZ BAYRAMOV



Novruz Mahmud oğlu Bayramov 1935-cildə Borçalıda – Başkeçid rayonunun Hamamlı kəndində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra ali təhsil alıb.

Böyük qardaşı Məhəmməd tanınmış sazbənd olduğundan Novruzda da bu sənətə maraq yaranıb. Qardaşından sazbəndliyin sirlərini öyrəndikdən sonra müstəqil olaraq saz düzəltməyə başlayıb.

Novruz Bayramov 2000-ci ildə dünyasını dəyişib.

# YƏHYA ÇOBANOV



Yəhya Namaz oğlu Çobanov 1935-ci ildə Borçalıda – Lüksemburq (indiki Bolnisi) rayonunun Darvaz kəndində anadan olub. 1955-ci ildə Darvaz kəndindəki orta məktəbi bitirdikdən sonra Borçalı Pedaqoji texnikumunda oxuyub. 1959-cu ildə texnikumda təhsilini başa vuraraq pedaqoji fəaliyyətə başlayıb, Bolnisi rayonunun bir sıra kəndlərində dərs deyib, hərbi xidmətdə olub.

O, pedaqoji fəaliyyətlə bərabər təhsilini də davam etdirərək 1968-ci ildə Gəncə Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib.

Təkcə doğulub boya-başa çatdığı Darvaz kəndində deyil, bütövlükdə Borçalıda onu həm də mahir bir usta kimi tanıyırlar. Elə bir sənət tapmaq çətindir ki, əlindən gəlməsin. O, bu gün unudulmaqda olan bir sıra xalq sənətinin bilicisi və yaşadıcısı kimi tanınır. Ağac ustası kimi də məşhurdur. Xalqımızın milli sərvəti olan musiqi alətlərimizin düzəldilməsində böyük səriştəsi var. Sazla yanaşı, tar, qara zurna, tütək və nağara da düzəldir, eyni zamanda bu alətlərdə ifa etməyi də bacarır.

O, həm də şair kimi tanınır, Yəhya Borçalı təxəllüsü ilə ustadnamələr, qoşmalar, gəraylılar, təcnislər, dodaqdəyməzlər, qıfılbəndlər, həcvlər, hərbə-zorbalar və s. yazır. Ondan artıq kitabın müəllifidir.

O, Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. Bir şeirini oxuculara təqdim edirik.

## DÜNYA

Neçə canlar gəlib getdi,
Bilirsənmi sən, a dünya.
Vaxtsız ömrü sona yetdi,
Eyləmədin çara, dünya.

Nə çoxdu qəsdin, qərəzin,
Düzgün çəkmir bil, tərəzin.
Şirin canı həzin-həzin,
Aparırsan hara, dünya.

Gülə-gülə üzümüzə,
Dağ çəkirsən sinəmizə.
Heç baxmırsan sözümüzə,
Bizik bəxti qara, dünya.

Sən Yəhyanın qoca canı,
Gəl itirmə din-imanı.
Sızıldadıb el-obanı,
Vurma qəlbə yara, dünya.

# HAQVERDİ NADİROV



Haqverdi Qoca oğlu Nadirov 1935-ci ildə Kəlbəcər rayonunun Hopurlu kəndində anadan olub. 1953-cü ildə orta məktəbi bitirib, sonra ordu sıralarında xidmət edib.

Hərbi xidmətini başa vurub vətənə qayıdan Haqverdi Qoca oğlu ali təhsil almaq qərarına gəlib, 1958-ci ildə o vaxtkı Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin əyani şəbəsinə daxil olub. 1964-cü ildə ali təhsilini başa vuran Haqverdi Nadirov təyinatla Kəlbəcərə göndərilib və rayonun müxtəlif kəndlərində pedaqoji fəaliyyət göstərib. Səmərəli pedaqoji fəaliyyətinə görə məktəb direktoru vəzifəsinədək yüksəlib.

Uşaqlıqdan saza-sözə, aşıq sənətinə böyük marağı olan H.Nadirov hələ orta məktəbdə oxuyarkən sazbəndliyin sirlərini də öyrənməyə çalışıb, ustad sənətkarlardan həm aşıq sənətinin, həm də sazbəndliyin sirlərini öyrənib. Elə o vaxtdan da sazbəndliyə başlayıb, pedaqoji fəaliyyətlə yanaşı, bu sənətlə də məşğul olub.

O, indiyədək 200-dən artıq saz düzəltdiyini deyir. Hazırda da sazbənd kimi fəaliyyətini davam etdirir, bu sənətin sirlərini gənclərə öyrətmək üçün əlindən gələni əsirgəmir.

# İSLAM MƏMMƏDOV



Borçalıda tanınmış sazbəndlərdən biri də usta İslam olub. İslam İsrafil oğlu Məmmədov 1936-cı ildə Gürcüstanın Lüksemburq (indiki Bolnisi) rayonunun Qaratikan kəndində anadan olub. Qonşu Dəllər kəndində orta təhsil alıb.

Hələ uşaqlıqdan əl işləri ilə fərqlənən, sonradan isə təkcə öz kəndlərində deyil, həm də bölgədə mahir bir bənna kimi tanınan İslam İsrafil oğlu eyni zamanda sazbəndliyə də həvəs göstərib. Onun bu sənətə gəlişində və püxtələşməsində həmkəndlisi Aşıq Novruzun böyük təsiri olub. Sazbəndliklə bağlı ondan dəyərli tövsiyələr, məsləhətlər alıb. Tezliklə sazbənd kimi tanınıb, məşhurlaşıb. Böyük ustad Hüseyn Saraçlı onun əl işini bəyənib, aşıqlardan Əhməd Sadaxlı və Məhəmməd Sadaxlı onunla müntəzəm əlaqə saxlayıblar.

Usta İslam öz sənətini oğlu Məcnuna da öyrədib. Bu gün Məcnun tanınmış sazbənd kimi atasının yolunu davam etdirməkdədir.

İslam Məmmədov 1999-cu ildə vəfat edib.

# ƏLİŞ QULİYEV



Əliş Abdulla oğlu Quliyev 1937-ci ildə Kəlbəcər rayonunun Molla Bayramlı kəndində anadan olub. Uşaqlıqdan saza-sözə meyil edib və 12 yaşından saz çalmağı öyrənib. Gənc yaşlarından aşıq kimi el şənliklərində çıxış edən Əliş Abdulla oğlu bu sənətin sirlərini dərindən öyrənmək üçün daim öz üzərində çalışıb, böyük ustad Aşıq Şəmşirdən dərs alıb, ondan bəhrələnib.



O, uzun müddət Kəlbəcər aşıqlar ansamblının rəhbəri, "Uşaq" aşıqlar ansamblının və "Yeddi gözəl" qızlar ansamblının yaradıcısı və rəhbəri olub.

Aşıq Əliş həm də mahir sazbənd kimi tanınıb. Kəlbəcərdən və ətraf bölgələrdən aşıqlar saz düzəltdirmək üçün ona müraciət ediblər. Onun oğlu Asif hazırda sazbənd kimi atasının yolunu davam etdirir.

# VALEH BAYRAMOV



Valeh Məhəmməd oğlu Bayramov 1940-cı ildə Borçalıda – Başkeçid rayonunun Hamamlı kəndində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində davam etdirib. Universiteti bitirdikdən sonra Borçalıya qayıdaraq doğma kəndi Hamamlıda orta məktəbdə müəllim kimi pedaqoji fəaliyyətə başlayıb, uzun müddət gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olub.

Borçalıda tanınmış sazbənd olan Məhəmməd Bayramovun ailəsində dünyaya gələn Valeh atasından sazbəndliyin sirlərini də öyrənib, pedaqoji fəaliyyətlə yanaşı bu sənətlə də məşğul olub.

Valeh Bayramov 2009-cu il dekabrın 31-də vəfat edib.

# PƏNAH QURBANOV



Pənah Abdulla oğlu Qurbanov 1940-cı il dekabr ayının 11-də Qərbi Azərbaycanda - Göyçə mahalının Ağkilsə kəndində anadan olub. 1948-ci ildə ailəsi ilə birlikdə Gəncə şəhərinə köçüb və burada da orta təhsil alıb. Orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün o zamankı H.Zərdabi adına Pedaqoji İnstituta (indiki Gəncə Dövlət Universiteti) daxil olub və 1963-cü ildə bu ali təhsil ocağının kimya-biologiya fakültəsini bitirib.



Elmi axtarışlara böyük maraq göstərən P.Qurbanov 1966-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) aspiranturasına daxil olub, əvvəlcə namizədlik, 1989-cu ildə isə doktorluq dissertasiyası müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsinə layiq görülüb, 1995-ci ilədək bu ali məktəbdə elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Daxili yanma mühərriklərinin təkmilləşməsi, ekoloji təmiz enerji mənbələrinin axtarışı kimi aktual elmi problemlər və fəlsəfi prob-

lemlərin araşdırılması da onun tədqiqatlarında mühüm yer tutub.

Pənah müəllim elmi-pedaqoji fəaliyyətlə yanaşı, həm də ədəbiyyata böyük maraq göstərib, xüsusilə də poeziyaya bağlı olub. 1984-cü ildən poeziyaya daha çox bağlı olan P.Qurbanovun "Göyçə - gözüm işığı" adlı ilk şeirlər kitabı 1991-ci ildə işıq üzü görüb. 2005-2006-cı illərdə isə beşcildlik şeirlər toplusu nəşr olunub.



Azərbaycan elmində özünəməxsus xidmətləri ilə seçilən bu görkəmli alim eyni zamanda sazbənd kimi də tanınıb. Özü də təkcə saz düzəltməklə kifayətlənməyib, digər milli musiqi alətlərimiz olan kamança, tar və qavalın daha da təkmilləşdirilməsində də xidmətləri olub.

Görkəmli alim, saz-söz xiridarı, sazbənd Pənah Qurbanov 2011-ci ildə dünyasını dəyişib.

***Pənah QURBANOV***

## GÖYÇƏ

Şanlı keçmişimdi, al sabahımdı,
Canım-ciyərimdi, gözümdü Göyçə.
Qibləmdi, Məkkəmdi, məbədgahımdı,
Dilimdə ən şirin sözümdü Göyçə.

Ayrılıq gələndən şirinləşibdi,
Eşqi ürəyimdə dərinləşibdi,
Düşmənə daha da sərinləşibdi,
Mərdlikdi, qeyrətdi, dözümdü Göyçə.

Ay Pənah, bu dərdə qovğadır əlac,
Oyat yatmışları, təbinlə nur saç.
Sürüş alçaq yağı, ordan uzaqlaş,
Bizimdi, bizimdi, bizimdi Göyçə.

# TAPDIQ SALEH OĞLU



Tapdıq Saleh oğlu 1944-cü ildə Tovuzun Qovlar qəsəbəsində anadan olub. Onun babası Aşıq Mehdi 1905-ci ildə erməni vəhşiliklərinə dözməyərək Göyçədən gəlib burada məskunlaşıb. Atası Saleh də aşıq olub. Hələ kiçik yaşlarından aşıq sənətinə böyük marağı olan, hətta dastanlarımızı öyrənməyə çalışan Tapdıq həm də sazbəndliyə meyl göstərib.

1962-ci ildə orta məktəbi bitirdikdən sonra Bakıya gələn Tapdıq Saleh oğlu burada müxtəlif işlərdə çalışıb, bir müddət daxili işlər orqanlarında xidmət edib. Eyni zamanda burada Dəmiryol texnikumunun inşaat şöbəsini bitirib. Tovuzda və ətraf bölgələrdə bir sıra körpülərin tikintisində çalışıb.

O, həm də dülgərlik edir, eldə-obada sazbənd kimi tanınır.

# SAZBƏND QƏZƏNFƏR:
# *"SAZBƏND SÖZSÜZ ÖMÜR SÜRMƏZ"*



Onu geniş təqdim etməyə elə də ehtiyac yoxdur. Sadəcə olaraq Qəzənfər Sazbənd demək kifayətdir ki, söhbətin kimdən getdiyi bəlli olsun. Onu tanıyanlar bir şeyi də yaxşı bilirlər ki, özünə Sazbənd təxəllüsü götürsə də, o, təkcə sazbənd deyil, həm də aşıqdır, şairdir. Şeirlərinin birində dediyi kimi, Sazbənd sözsüz ömür sürməz. Bu barədə söz düşəndə özünü qısaca olaraq belə təqdim edir: sazbənd və yaradıcı aşıq. Ona görə yaradıcı aşıq ki, qələmini aşıq şeirinin müxtəlif janrlarında sınayıb və indiyədək "Özgə adda gəzəmmərəm", "Sazbənd Qəzənfərin saz-söz dünyası", "Yaşa dedi ellər mənə" adlı üç kitabı işıq üzü görüb. "Özgə adda gəzəmmərəm" adlı şeir kitabı həm də Türkiyədə çap olunub. Dediyinə görə saz havaları da yaradıb. Uzun müddət Bakıdakı 23 və 35 saylı uşaq musiqi məktəblərində dərs deyərək yeniyetmələrə sazın sirlərini öyrədib. Yetirmələri dəfələrlə müxtəlif müsabiqələrdə birinci yeri tutublar.

...Qəzənfər Əli oğlu Tağılı (Qəzənfər Sazbənd) 1946-cı il iyul ayının birində Gədəbəy bölgəsinin Göyəmli kəndində kolxozçu ailəsində anadan olub. 1964-cü ildə Zamanlı kəndində orta məktəbi bitirdikdən sonra Bakıya gəlib, burada bənnalıq üzrə peşə məktəbinə daxil olub. Həmin məktəbi bitirdikdən sonra təyinatla Sumqayıt şəhərində inşaat sahəsində əmək fəaliyyətinə başlayıb, bir müddət çalışdıqdan sonra hərbi xidmətə gedib. Ordudan tərxis olunduqdan sonra yenidən Bakıya qayıdıb, 1966-cı ildə Bakı 1 saylı Evtikmə kombinatında quraşdırıcı kimi işləməklə yanaşı, təhsilini də davam etdirərək Bakı Yerli Sənaye Texnoloji texnikumunun ağac biçmə və ağac emalı şöbəsini bitirib. 1988-1998-ci illərdə tikinti ustası vəzifəsində çalışıb. Əmək veteranıdır.

Sazbənd Qəzənfərlə aşıq sənətinin dünəni və bu günü ilə bağlı geniş fikir mübadiləsi etdik, dünyasını dəyişmiş məşhur ustadları xatırladıq, bu günkü sənətkarlardan söz açdıq. Söhbət təbii ki, həm də onun özündən düşdü. Daha çox sazbəndlikdən, onun bu sənətə gəlişindən söz açdıq və ona ənənəvi bir sualla müraciət etdik:

**- *Necə oldu ki, sazbənd oldunuz, bu sənətə gəlişiniz nəylə bağlıdır?***

- Bildiyiniz kimi, mənim doğulub boya-başa çatdığım Gədəbəy rayonu sazın-sözün vətənidir. Gözümü açandan sazın-sözün əhatəsində böyümüş, aşıqların sinəsində saz görmüşəm və elə uşaqlıqdan istəmişəm ki, mənim də sazım olsun. Uşaq vaxtı bu istəyimə çatmasam da, həddi-buluğa çatıb Bakıya oxumağa gələndən sonra özümə bir saz aldım. Daha dəqiq deyim ki, Bakıda sazbənd emalatxanası olmadığından ilk dəfə özümə sazı 1974-cü ildə gedib Tovuzun bazarında əldən, ikincisini isə türk dünyasında tanınmış məşhur sazbənd usta Xududan aldım.

Hər kəsin qəlbində bir musiqi nidası var və aldığım hər iki saz ötkəm və gözəl olsa da, özümdən asılı olmayaraq nədənsə mənə elə gəldi ki, bu sazlar kövrək ötmür. Bu səbəbdən də sazın sinəsini söküb təzələmək istədim. O vaxtlar hətta qohumlarımdan məni danlayanlar da oldu ki, sən inşaatçısan, saz düzəltmək sənlik deyil, get öz işinlə məşğul ol. Həm bu sahədə təcrübəmin olmaması, həm də bu təcrübəsizlikdən irəli gələrək keyfiyyətli ağac materialı tapammadığımdan istədiyimə nail ola bilmədim və usta Xudunun yanına gedib sazın sinəsini yenidən onun özünə düzəltdirdim. Kim bilir, bəlkə elə bu da talenin qismətimə yazdığı yazıymış ki, sazbəndliyə gedən yolumun başlanğıcı kimi heç zaman xatirimdən silinməyəcək. Belə ki, həmin vaxt aldığım materiallardan sonradan özüm iki saz düzəltdim. Doğrudur, ilk işim olduğundan müəyyən qüsurlar da yox deyildi. Amma görənlər tərifləyib məni daha da həvəsləndirdilər. Dostlar, tanışlar onlara da saz düzəltməyi xahiş etdilər. Beləcə, başladım yavaş-yavaş saz düzəltməyə və bir də gördüm ki, artıq mənə usta deyirlər. Demək istəyirəm ki, əslində sazbənd olmaq istəməsəm də, bu sənətə gəlməyimin səbəbi bu olub.

- ***Usta, sazbəndlik sözün əsl mənasında olduqca incə bir sənətdir. Burada təkcə dülgərlik, ağacla işləmək qabiliyyəti azdır. Bu sənətin özünəməxsus incəlikləri var və onları bilmədən, daha doğrusu, bir ustaddan heç olmasa məsləhət almadan kamil sənətkar olmaq mümkün deyil. Bu baxımdan maraqlıdır, bu sənətə gələrkən məsləhət üçün üz tutduğunuz ustad olubmu? Əl işlərinizin daha çox hansı sazbəndin düzəltdiyi sazlara bənzəməsini istəmisiniz?***

- Düzünü deyim ki, nəinki sazbəndliyə başladığım ilk vaxtlarda, elə indinin özündə də çalışıram ki, usta Xu-

dunun düzəltdiyi saza bənzər saz düzəldim. Bildiyiniz kimi, mən şeir də yazıram. Və həmişə Allahdan elə qüdrət istəmişəm ki, yazdığım şeirlər Səməd Vurğunun şeirlərinə, düzəltdiyim saz isə Xudunun sazına bənzəsin.

- ***Usta, bu gün tanınmış aşıqlardan hansının sinəsindəki sazı siz düzəltmisiniz?***

- Aşıqların əksəriyyətində Usta Xudunun düzəltdiyi sazdır, yəni o, aşıqların hamısını təmin etdiyindən bizlərə ehtiyac qalmayıb. Aşıqların, demək olar ki, doxsan faizi sazı ondan alırdı. Amma bu, o demək deyildir ki, mənə müraciət edən olmur. Son vaxtlar saza maraq gücləndiyindən bizə müraciət edənlərin sayı da gündən-günə artır.

- ***Bəs bir sazbənd kimi necə izah edərdiniz, bu qədər sazbənd olduğu halda niyə tanınmış aşıqlar usta Xuduya müraciət ediblər? Onun düzəltdiyi sazın üstünlüyü nəydi?***

- Usta Xudu ilə sağlığında yaxın əlaqələrimiz olub. Deməliyəm ki, onun düzəltdiyi saz həm formaca, həm də keyfiyyət baxımından gözəldir.

- ***Dediniz ki, Xudunun düzəltdiyi saz daha çox xoşa gəlib. 35 ildir sazbəndliklə məşğulsunuz. Bu müddətdə siz də elə saz düzəldə bilmədinizmi ki, Usta Xudunun sazı kimi bəyənilsin.***

- Əslində bu, elə bir sənət sahəsidir ki, ayrı-ayrı ustaların işi yüzdə yüz bir-birinə oxşaya bilməz. Tam olmasa da, mənim düzəltdiyim sazlar doxsan faiz usta Xudunun düzəltdiklərinə bənzəyir. Burada əl qabiliyyəti ilə yanaşı, material da böyük rol oynayır. Mən material sarıdan həmişə çətinlik çəkmişəm. İşimin çoxluğundan vaxtım olmur ki, rayonları gəzib saz düzəltmək üçün yararlı, keyfiyyətli tut ağacı tapım. Gədəbəydə də tut ağacı yoxdur ki, ildə bir dəfə gedib istədiyim materialı yığıb gətirim.

...Böyük sənətkara qiymət verməyi bacarmaq özü böyüklükdür. Onunla söhbət zamanı bir şey diqqətimdən yayınmadı: Sazbənd Qəzənfər həm sazbənd, həm də aşıq kimi kifayət qədər tanınsa da, bəziləri kimi mənəm-mənəm demir, hər kəlməbaşı ustadları xatırlayır. Usta Xududan bu qədər minnətdarlıq hissi və böyük məhəbbətlə danışması isə əsl qədirşünaslıq nümunəsidir. Elə buna görədir ki, özü də hər yerdə hörmətlə qarşılanır, sənətinə böyük qiymət verilir. İndiyədək bir çox mükafatlara da layiq görülüb. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziriliyinin, Bakı şəhər Mədəniyyət İdarəsinin Fəxri fərmanları və digər mükafatlarla təltif olunub, "Qızıl Qələm" mükafatı laureatıdır.

* * *

***Sazbənd Qəzənfərin iki şeirini oxucularımıza təqdim edirik.***

## QAĞA

Çox dost gəzən dostsuz qalar,
Mənim dostum birdi, qağa.
Kişi dostu darda sına,
Dar günündə şirdi, qağa.

Dost dostunu həmdəm sayar,
Dərd əhlini gözdən gözdən duyar.
Gərək olsa, can da qıyar,
Belə dostlar pirdi, qağa.

Sazbənd, dostluq bağlı boğça,
Əvəz etməz qızıl axca,
Dostlar da var, quru taxça.
İnsan əhli-sirdi, qağa,
Mənim dostum birdi, qağa.

## DÜŞDÜM

Ömür keçdi, saç ağardı,
Başa düşdüm qocalığı.
Cavan ömür bahar-yazmış,
Qışa düşdüm qocalığı.

Güzgü dedi rəngim solub,
Fikir-xəyal yoldaş olub.
Bir korşalmış yaddaş qalıb,
Huşa düşdüm qocalığı.

Sazbənd sözsüz ömür sürməz,
Bildiyini hər kəs verməz.
Gözlülər var, gözü görməz,
Çaşa düşdüm qocalığı.

## SÜLEYMAN SÜLEYMANOV



Süleyman Mehralı oğlu Süleymanov 1946-cı ildə Kəlbəcər rayonunun Ağcakənd kəndində anadan olub, burada da orta məktəbi bitirb. Hələ uşaqlıqdan tarda və sazda ifası ilə seçilib, məktəbin özfəaliyyət dərnəyinin fəallarından olub. 1966-1968-ci illərdə ordu sıralarında xidmət edən S.Süleymanov hərbi xidmətini başa vurduqdan sonra Ağcakənd Mədəniyyət evinin direktoru kimi fəaliyyətə başlayıb, hazırda da bu vəzifədə çalışır. 1975 və 1987-ci illərdə SSRİ miqyasında keçirilən Ümumittifaq Xalq yaradıcılığı festivallarının laureatı olub. 1976-cı ildə SSRİ Bəstəkarlar İttifaqının keçirdiyi etnoqrafik konsertdə çıxışına görə bu ittifaqın Fəxri fərmanına layiq görülüb. 1988-ci ildə SSRİ Dövlət Kinematoqraflya komitəsinin Leninqradda (indiki Sankt Peterburq) təşkil etdiyi Beynəlxalq Folklor festivalında birinci dərəcəli diplomla mükafatlandırılıb. Həmin il həm də "Gülüstan" folklor teatrının tərkibində YUNESKO-nun Fransada keçirdiyi Beynəlxalq folklor festivalında sazda ifasına görə bürünc medala layiq görülüb.

Sazbəndliyə gəlişi də təsadüfi olmayıb, ata-babası da sazbənd olublar və o, sazbəndliyi atası Mehralı kişidən öyrənib. 1970-ci ildən artıq həm də bir sazbənd kimi tanınmağa başlayıb.

1975-ci ildən isə böyük sənətkar usta Xududan məsləhətlər alaraq bəhrələnib, onun sənət yolu ilə gedib. Özünün dediyinə



görə Aşıq Hidayət, Qəmkeş Allahverdi, Ulduz Sönməz, Ədalət Dəlidağlı, aşıq Sevindik və digər tanınmış aşıqlara saz bağlayıb.

1998-ci ildə Böyük Britaniyanın "OKSFAM" təşkilatı ilə müqaviləyə əsasən bağladığı 23 ədəd saz hazırda bu ölkədədir. Elə həmin müqavilə əsasında bu təşkilatdan aldığı pulla da qaçqınlıq nəticəsində dağılmış emalatxanasını qismən də olsa bərpa edib. Yeri gəlmişkən qeyd edək ki, Kəlbəcər rayonu da ermənilər tərəfindən işğal olunduqdan sonra Süleyman Mehralı oğlu Yevlax rayonunun Gövər kəndində məskunlaşıb.

Sazbəndliklə yanaşı, həm də aşıqlıq edən Süleyman Mehralı oğlu aşıqlığı da əvvəlcə atasından, sonra aşıq Hidayətdən öyrənib. Daha sonra isə böyük sənətkar Əmrah Gülməmmədovdan bəhrələnib.



Həm sazbənd, həm də aşıq kimi fəaliyyətini davam etdirən Süleyman Süleymanov hər iki sahədə bildiklərini

saza və sazbəndliyə meyil göstərən yeniyetmə və gənclərə böyük həvəslə öyrədir. Hazırda sazbəndlik üzrə 14 nəfər şəyirdi var. 20 nəfərə isə aşıqlıq sənətinin sirlərini öyrədir. Sazbənd şəyirdlərindən Etibar, Müzəffər, Qənimət və Tariyelin adını çəkən Süleyman kişi ondan aşıq sənətinin sirlərini öyrənənlərdən isə Duman, Sevindik, Rasim, Tariyel, Vüqar, İlham, Ələsgər və digərlərinin adlarını qeyd etdi.

Oğlu Söhrab da həm sazbənd, həm də aşıq kimi atasının yolunu davam etdirir.

# HÜSEYN HÜSEYNOV



Hüseyn Əziz oğlu Hüseynov 1947-ci ildə Qazax rayonunun Yuxarı Göyçəli kəndində anadan olub.

Saza-sözə bağlı bir ailədə böyüyüb boya-başa çatan Hüseynin atası da aşıqlıq edib. Aşıqlıq sənətinin sirlərini isə daha dərindən Köhnə Qışlaq kəndindən olan aşıq Aslan Aslanovdan (Çapıq Aslandan) öyrənib. 1983-cü ildən isə saz müəllimi kimi özü bu sənətin sirlərini yeniyetmələrə və gənclərə öyrədir.

Bununla yanaşı Hüseyn Əziz oğlu həm də sazbəndliklə məşğuldur. Bu sənətin sirlərini isə məşhur sazbəndlər usta Məhəmmədəli və usta Xududan, eləcə də Gəncədə fəaliyyət göstərən usta Kamaldan öyrənib.

Hüseyn Hüseynov hazırda Ağstafa Mədəniyyət evində metodist vəzifəsində çalışmaqla yanaşı eyni zamanda saz müəllimi kimi də fəaliyyət göstərir.

# PAŞA HÜSEYNOV



Paşa Musa oğlu Hüseynov 1948-ci ildə Qərbi Azərbaycanda – indiki Ermənistanın İcevan rayonunun Salahlı kəndində anadan olub. Elə həmin kənddə də orta təhsil alan Paşa Musa oğlu 1965-ci ildə orta məktəbi bitirərək İrəvan Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1969-cu ildə ali təhsilini başa vurduqdan sonra doğma kəndində pedaqoji fəaliyyətə başlayıb və 1988-ci ildə ermənilər tərəfindən öz dədə-baba yurdundan deportasiya olunana qədər burada gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olub. 1988-ci ildə Bakıda məskunlaşıb və Xətai rayonundakı 263 saylı orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirərək on il də burada çalışıb.

El arasında həm də sazbənd kimi tanınan Paşa Hüseynov sənətkarlar ocağı kimi məşhur olan Paşalar tayfasının nümayəndəsidir. Yüz il ömür sürmüş atası Musa kişinin əlindən qaçan iş olmayıb, eldə-obada sazbənd kimi də ad qazanıb.

Sazbəndliyə gəlişindən danışan Paşa müəllim mənsub olduğu tayfadan qürurla danışaraq deyir ki, tayfamız sənətkarları, şairləri və aşıqları ilə tanınıb. Onlardan Hüseyn Mayıl, Şeyda Əziz, Miskin Əli, Tofiq Hüseynov, folklorşünas Hümbət Əlizadə, Aşıq İsmayıl, Gövhər Əziz qızı və digərlərinin adlarını iftixarla çəkir.

Özünün sazbəndliyə meylinə gəldikdə isə belə deyir: “Tarın ecazkar səsinin vurğunu idim və 1967-ci ildə ilk

dəfə tar düzəltdim. İlk əl işim olan həmin tar mənim üçün olduqca qiymətlidir və bu gün də saxlayıram. Göyçə aşıqlarından Müseyibi, İmranı, Fətullanı, Sultanəlini, Məhəmmədəlini və şair Alqayıtı dinlədikdən sonra isə saza da



həvəsim artdı. Tez-tez sevimli müəllimim Əliş Abdalovun yanına gedərək onun saz çalmağına diqqətlə qulaq asar, oynaq barmaqlarından süzülən aşıq havalarından doymaq bilməzdim. Yeri gəlmişkən deyim ki, mənim sazbənd olmağımda Əliş müəlliminn oğlu Həsənin də böyük təsiri olub".

Paşa müəllim ilk sazını 1970-ci ildə Pəhləvan adlı beşinci sinif şagirdi üçün düzəldib. Xoşbəxtlikdən indi o da aşıqdır. Sonralar sazbəndliyin sirlərinə daha dərindən bələd olmaq üçün Qazax rayonuna gələrək məşhur sazbənd Məhəmmədəlidən məsləhətlər alıb, bu ustad sənətkarın tövsiyələri onun sazbənd kimi püxtələşməsində mühüm rol oynayıb. Həm usta Məhəmmədəli, həm də atası onun düzəltdiyi sazları bəyənərək yüksək qiymətləndiriblər.

Düzəltdiyi sazın keyfiyyətindən danışan Paşa müəllim sazbənd kimi həmkarlarının çoxunu arxada qoyduğunu, üstəlik tar, nağara və qaval da düzəltdiyini deyir: "Təkcə Göyçə mahalında mənim düzəltdiyim 200-dən artıq saz satılıb. O vaxtlar hətta Azərbaycanda və Gürcüstanda da mənim əl işlərim geniş yayılmışdı. 1988-ci ildə məcburən Bakıya köçdükdən sonra da bu işdən ayrılmamışam və 100-dən çox saz düzəltmişəm.

Paşa müəllim deyir ki, dədə-baba yurdu Salahlıda yaşayarkən şair Hüseyn Ariflə sıx əlaqələri olub. Hüseyn Arif Azərbaycan Aşıqlar Birliyinin sədri olduğu illərdə isə bu əlaqələr daha da möhkəmlənib. 1990-1991-ci illərdə İsraildə dünya xalqlarının musiqi alətlərinin sərgisi keçirilərkən də məhz onun məsləhəti ilə bir saz düzəldərək həmin sərgiyə göndərib. Almaniyadan Bakıda məskunlaşmış qaçqınlara yardım gətirmiş nümayəndə heyətinin üzvləri də ondan tar və saz alıb öz vətənlərinə aparıblar. İrandan gələn müştəriləri də çox olub.

Bir çox məşhur aşıqlarla da ünsiyyətdə olan Paşa Hüseynov böyük ustad aşıq Kamandar Əfəndiyevi xüsusi minnətdarlıqla xatırlayır. Hal-hazırda yaşayıb fəaliyyət göstərən aşıqlardan Ədalət Nəsibov, Solmaz Kosayeva, Əşrəf Təmirov, Cahangir Quliyev, Kəmalə Qubadlı, Dəmir Vəliyev, Ulduz Quliyeva və digərləri ilə tez-tez görüşüb əlaqə saxlayır.

Oğlanları Hafiz və Elxan da atalarının sənətinə biganə deyillər, ondan sazbəndliyin sirlərini öyrəniblər.

# ELBƏYİ XƏLİLOV



Elbəyi Dünyamalı oğlu Xəlilov 1948-ci il fevralın 5-də Borçalının Ağməmmədli kəndində məşhur sazbənd Dünyamalı Xəlilovun ailəsində anadan olub. Atası sazbəndliklə yanaşı əvvəllər həm də aşıqlıq etdiyindən hələ uşaqlıqdan onunla bərabər toylara, el şənliklərinə gedib.

İlk təhsilini Ağməmmədli kəndində alan Elbəyi Dünyamalı oğlu burada səkkizinci sinfi bitirib və 1961-ci ildə daimi yaşamaq üçün ailəsi Marneuli şəhərinə köçəndən sonra təhsilini davam etdirməyib.

Aşıq sənətinə və sazbəndliyə meyil onda hələ uşaqlıqdan yaranıb. Atalar nahaq deməyib ki, ustad oğlu şəyird olmaz. Elbəyi də gözünü açandan evdə saz görüb, daim qonaq-qaralı olan ocaqlarında o dövrün məşhur aşıqlarının ifalarını dinləyib. Bu barədə danışarkən özü deyir ki, o dövrün tanınmış aşıqlarından Aşıq Oruc, Ziyəddin Qırıxlı, Sadıq Sultanov, Avdı Qaymaqlı, Şəmil Dərəçiçəkli,

Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev, Cəlal Qəhrəmanov, Əlixan Qarayazılı və digərləri tez-tez bizim evdə olardılar. 1964-cü ildə Sadıq Sultanov bizim evdə bir "Misri" oxudu ki, səsi hələ də qulaqlarımdadır.

Beləcə, hər ustadan bir şey götürərək aşıq kimi püxtələşib. 1976-cı ildə gənc aşıqların Qazax rayonunda keçirilən festivalında birinci yerə layiq görülüb.



Ancaq Elbəyi Dünyamalı oğlu el arasında daha çox sazbənd kimi tanınıb, məşhurlaşıb. Əslində burada da qeyri-adi bir şey yoxdur. Çünki hələ uşaqlıqdan bu sənətin incəliklərini də atasından mükəmməl mənimsəyərək artıq 13-14 yaşlarında ilk sazını bağlamışdı. Yeri gəlmişkən bir şeyi də qeyd etmək lazımdır ki, Elbəyi sazın sədəflə bəzədilməsində xüsusilə mahirdir. Deyir ki, ustad Kamandar Əfəndiyevin sazına mən bəzək vurmuşam.

2000-ci ildən Bakıda yaşayıb fəaliyyət göstərən Elbəyi Xəlilov bu gün də öz sənətini davam etdirir. Sazdan, sazbəndlikdən söz düşəndə gileyini də gizlətmir. Bu giley bir tərəfdən atasının və özünün bir sənətkar kimi mütəxəssislər, folklorşünaslar tərəfindən yada salınmaması ilə bağlıdırsa, digər tərəfdən də həm aşıq sənətinin, həm də sazbəndliyin bu günkü taleyi ilə bağlıdır. Deyir ki, ayrı-ayrı televiziya kanallarında aşıq sənətinə yer verilsə də, çox vaxt bu verilişlər səviyyəsinə görə bu sənətin adına layiq olmur. Bir də görürsən ki, ekrana çıxan aşıq bir havanın adını elan edir, amma başqa hava çalır. Yaxud da havanın başına elə oyun açır ki, baş açmaq olmur çaldığı nədir.

Sazbəndliklə bağlı narahatlığı isə əsasən ondan ibarətdir ki, bu gün bəzi sazbəndlər hazırladıqları sazın keyfiyyətindən çox, kəmiyyətinə fikir verirlər, çalışırlar ki, daha çox saz düzəldib, ucuz-baha satsınlar.

Yaxşı saz düzəltmək üçün ilk növbədə yaxşı material lazımdır ki, bunu da tapmaq elə də asan deyil.

Sənətin davamı ilə bağlı ailə ənənəsindən danışan Elbəyi Xəlilov deyir ki, sazbəndlik qadın peşəsi olmasa da, qızlarının ikisi də gözəl saz çalır.

# CABBAR CABBAROV




Cabbar Qasım oğlu Cabbarov 1950-ci il avqustun 20-də Laçın rayonunun Ağbulaq kəndində anadan olub.

1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (ADPU) coğrafiya fakültəsinə daxil olub, 1973-cü ildə burada təhsilini başa vurub.

1966-cı ildən aşıqlıqla, 1980-ci ildən isə həm də sazbəndliklə məşğul olur. Sazbəndliyin sirlərini 1974-cü ildə məşhur sazbənd Xudu Mahmudovdan öyrənib. Belə ki, özünə saz düzəltdirmək üçün 1974-cü ildə Usta Xudunun yanına gedib. Elə o vaxtdan da aralarında səmimi münasibət yaranıb və bu münasibət sonralar ailəvi dostluğa çevrilib. Sazını təmirə aparanda və ya şəyirdləri üçün saz düzəltdirməyə gələndə hər dəfə 4-5 gün onun evində qonaq olub, beləcə, ondan sazbəndliyin sirlərini öyrənib. Usta Xudu da çalışıb ki, sazbəndliyin bütün sirlərini ona öyrətsin. Bu məqsədlə ona tövsiyələrini, dəyərli məsləhətlərini verib. Onda gücünə inam yaradaraq deyib ki, yaxşı saz çaldığı kimi, yaxşı saz da bağlaya bilər.

Sazın ölçülərini, sazın sinəsinin və çanağının qəliblərinin formasını və ölçüsünü, saz düzəltmək üçün ağac növünün seçilməsi və kəsilmə müddəti və s. kimi mə-

sələləri tam öyrəndikdən sonra 1985-ci ildən etibarən müstəqil olaraq saz bağlamağa başlayıb. İlk sazı özü üçün düzəldib, Həmin saz hal-hazırda da durur və 2010-cu ilin dekabrında özünün 60 illik yubiley tədbirində də həmin sazla çıxış edib.




***Xalq şairi, AAB-nin sədri Zəlimxan Yaqub Cabbar Cabbarovu 60 illik yubileyi münasibəti ilə təbrik edir.***

Cabbar Qasım oğlu indiyədək çox sayda saz bağlayıb rayonun gənc saz həvəskarlarına verib.

Sazbəndliyin sirlərini öz kəndlərindən olan Alxanov Atlıxana, Şeylanlı kəndindən Quluyev Qulu Mehbalı oğluna öyrədib. Bunlardan başqa qonşu Şeylanlı kəndində Adil Cəfakeş, Nəsimi Məmiyev də sazbəndliklə məşğuldurlar.

Aşıq sənətini təbliğ edərək 1977-ci ildə Laçın rayonunda "İşıqlı" aşıqlar ansamblını yaradıb. 1981-ci ildə həmin ansambl onun rəhbərliyi altında Azərbaycan

Dövlət Filarmoniyasında konsert verib. 1978-ci ildə Salyan rayonunda, 1979-cu ildə Şəmkirdə respublika üzrə keçirilən gənc aşıqların baxış-müsabiqəsinin qalibi olan bu ansambl Azərbaycan SSR Mədəniyyət Nazirliyinin diplom və Fəxri fərmanına layiq görülməklə qaliblər sırasına qalxıb.

1977-ci ildə keçirilən Zəhmətkeşlərin Ümumittifaq yaradıcılıq Festivalının laureatı adını qazanıb. Həmin il Tacikistan Respublikasında keçirilən laureatların nümunəvi çıxışı zamanı müəllim-aşıq olduğuna görə Tacikistan Maarif Nazirliyinin Fəxri fərmanına layiq görülüb. (23 iyun 1977-ci il, Düşənbə).

Cabbar Cabbarov hazırda aşıqlıqla yanaşı sazbənd kimi də fəaliyyətini davam etdirir.

# İSGƏNDƏR BUDAQOV



İsgəndər Qədir oğlu Budaqov 1951-ci il fevralın 20-də Ağstafa rayonunun Dağkəsəmən kəndində anadan olub. Hələ orta məktəbdə oxuyarkən saza meyil salıb, əlinə keçən taxta parçalarını yonaraq öz aləmində saz düzəldib. Bunu görən valideynləri bu işə marağını nəzərə alaraq onu Qazax şəhərində yaşayıb fəaliyyət göstərən böyük ustad sənətkar, sazbənd Məhəmmədəli kişinin yanına gətirirlər. Yeniyetmənin həvəsinin ötəri olmadığını görən ustad onu özünə şəyird götürür. Və 1965-ci ildən İsgəndər Qədir oğlu bu böyük sənətkarın yanında sazbəndliyin sirlərini öyrənməyə başlayır. Orta məktəbi bitirəndə o, artıq sazbəndliyi öyrənmişdi.

1969-cu ildə o vaxtlar Qazaxda fəaliyyət göstərən pionerlər evinin direktoru Əminə xanım usta Məhəmmədəliyə bu müəssisə üçün irili-xırdalı 60-a yaxın saz düzəltməyi sifariş edir. Bu sifarişin uğurla yerinə yetirilməsində İsgəndər Qədir oğlu da yaxından iştirak edir. Verdiyi sifarişlə bağlı bir gün ustanın yanına gələn Əminə xanım İsgəndəri də orada görür və Məhəmmədəli kişidən xahiş edir ki, bu cavan oğlan bir saz havası ifa eləsin. İsgəndər sazda bir neçə hava çalır. İfasını bəyənən Əminə xanım onu Pionerlər evinin nəzdindəki saz dərnəyinə rəhbər təyin edir. Yeri gəlmişkən, bu gün respublikamızda

məşhur qadın aşıq kimi tanınan Solmaz Kosayeva da vaxtilə bu dərnəyin üzvü olub.

Onun rəhbərlik etdiyi dərnəyin uğurları gündən-günə artıb, sorağı respublika və ümumittifaq miqyasında eşidilməyə başlayıb. 1970-ci ildə İsmayıllı rayonunda keçirilən Respublika pioner yay toplanışında birinci yeri tutduqlarına görə yeddi nəfər məktəbli ilə birlikdə Moskvaya göndərilib. Bu işində müvəffəqiyyətlə çalışsa da, Əminə xanım ona məsləhət görüb ki, ali təhsil alsın və o, Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) daxil olub. Tələbəlik illərində institutun bədii özfəaliyyət kollektivində uğurlu çıxışları ilə yadda qalıb.

İnstitutu bitirdikdən sonra 1975-ci ildə ixtisasına müvafiq olaraq Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində əmək fəaliyyətinə başlayıb və 1991-ciilədək burada çalışıb. Bu illərdə onun üçün əziz olan sazdan və sazbəndlikdən də ayrı düşməyib. Müraciət edənlərə saz düzəldib.

Onun barəsində respublika qəzetlərində məqalələr dərc olunub, Amerikadan gəlmiş folklorşünas videoçəkiliş edərək öz vətəninə aparıb.

İsgəndər Budaqov hal-hazrda sevimli sazbəndlik sənətiylə məşğuldur.

# MURAD KÖVRƏK: "SƏNƏTİMİ ÖYRƏTMƏLİYƏM Kİ, MƏNDƏN SONRA KİMSƏ QALSIN"



**Murad Kövrək (Murad Əli oğlu Sarıyev) 1952-ci il iyulun 7-də Borçalıda – Bolnisi rayonunun Dəllər (Muşevani) kəndində anadan olub. Burada orta məktəbi bitirib. Ustad aşıq Hüseyn Saraçlının sonuncu şəyirdidir. Ustadı ilə el şənliklərində çıxış edən, ağır məclislər yola salan Murad Kövrək bu gün həm də tanınmış sazbəndlərdəndir. Hazırda Bakıda yaşayır və sazbənd kimi fəaliyyətini uğurla davam etdirir.**

***

**– Ustad, necə oldu ki, bu sənətə gəldiniz?**

– Atam dülgər idi, araba, çul, boyunduruq, bir sözlə kənddə lazım olan hər şey düzəldirdi. Mənim də uşaqlıqdan saza qarşı böyük marağım vardı. Özümü biləndən, 3-4-cü sinifdə oxuyandan atamın alətlərindən istifadə edərək cır armud ağaclarının içini yonub saz düzəldirdim. Hərdən mənə əsəbiləşirdi, baltanın, kərkinin ağzını qırma deyirdi. Sazbəndliyi peşəkar şəkildə isə Hüseyn Saraçlının yanında öyrəndim.

– ***Ustad aşıqlar hər saz çalanı şəyird götürməzdilər. Hüseyn Saraçlı sizin istedadınızı nə vaxt, harada görüb bəyənmişdi?***

– Ustad bizim kəndə toya gəlmişdi, ustaddan xahiş etdilər ki, icazə ver bu uşaq da bir hava oxusun. Mən də saz çalmağı kəndçimiz aşıq Əhədin yanında öyrənmişdim. Ustad icazə verəndən sonra mən çox çəkinə-çəkinə sazımı götürdüm. Bunu görən Hüseyn Saraclı – "ziyan yoxdu, sən hələ cavansan, aşıq deyilsən", - dedi.

Bir hava çaldım, xoşuna gəldi. Dedim, məni şəyird götürərsinizmi? "Niyə götürmürəm, səndən yaxşı durnaboğaz aşıq olar", - dedi. Elə həmin ilin, yəni 1964-cü ilin payızında onun yanına şəyird getdim.

Hüseyn Saraçlı həm də sazbənd idi. Dostunun, tanışının, yaxın adamlarının sazını gətirib evində düzəldirdi, sim salırdı, kökləyirdi və s. Sazbəndliyin sirlərini də öyrətdi mənə.

– ***Sizi həm aşıq, həm də sazbənd kimi tanıyırlar. Siz necə, özünüzü sazbənd kimi üstün sayırsınız, yoxsa aşıq kimi?***

– Mənim üçün hər ikisi eynidir. Hal-hazırda gücümü daha çox sazbəndliyə verirəm, çünki müraciət edənlər



çoxdur. Məndən İrandan, Türkiyədən də saz istəyənlər çoxdu. Yeri gələndə aşıq kimi də fəaliyyət göstərirəm, televiziya verilişlərinə, məclislərə dəvət olunuram.

***– Bildiyimiz kimi, siz Hüseyn Saraçlının son şəyirdi olmusunuz. Onu necə xatırlayırsınız?***

– Həmişə o yadıma düşəndə gözlərim dolur. Çox gözəl ustad, geniş dünyagörüşlü bir şəxsiyyət idi. O, aşıq deyil, hər hansı peşənin sahibi də olsa, yenə tanınmış bir şəxsiyyət olardı. Çox kamil insan idi, aşıqlıqla yanaşı bütün sənətlərdən başı çıxırdı. Hər şeyin yerini bilən adam idi. Beş il evində şəyirdlik etdim, Saraçlı camaatının hamısı bunu bilir, hamısı məni tanıyır. Ailə qurandan sonra sərbəst aşıqlıq etdim. El şənliklərində olanda hərdən ismarıc göndərirdi, gedib köməklik edirdim.

***– Şəyird ustaddan öncə nəyi öyrənməlidir?***

– Hər şeydən əvvəl ədəb-ərkanı. Aşıqlıq çox incə sənətdir. Rəhmətlik Hüseyn Saraçlı deyərdi ki, sən bir nəfərsən, məclis əhli 200-300 nəfərdir, hamısının nəzəri bir nəfərdə, aşıqda olar. Ona görə ədəb-ərkanın kamil olmalıdır.

***– Bu gün sazbəndliyə maraq varmı?***

- Var, özü də əvvəlkinə nisbətən daha çox maraq var. İndi şəhərlərdə, rayonlarda məktəblər var. Qabaq da belə yığma məktəblər olsaydı bəlkə də aşıq sənəti çox inkişaf edərdi. Saz çalmaq üçün bir aşığın yanına gedib qulluq etməliydin. Onda aşıqlar öz evində saxlayırdı şəyirdini. Elə bil ki, ailənin bir üzvü idi şəyird, təkcə aşıqlığı öyrənmir, ailə üzvü kimi ev işlərində də kömək edirdi. İndi əfsus ki, heç kəs evində öyrətmək istəmir şəyirdini.

– ***Şəyirdiniz varmı?***

– Şəyirdlərim çoxdu, məsələn bizim kənddə işləyən ustalar, Bafəlı, onun qardaşı Qərib, qardaşım İmdat və s.

– ***Hazırda şəyirdiniz varmı?***

– Bir Gədəbəyli gənc xahiş eləmişdi, payızdan gələcək. Sazbəndlik çox çətin sənətdir, asan olsaydı hamı saz düzəldərdi. Bəzən yolda, küçədə saz satırlar, onlar saz deyil. Şəklini çəkib satırlar.

– ***Ustad, sözünüzə qüvvət, ustad aşıqlar hər sazı bəyənmirlər. Onları daha çox sazın hansı xüsusiyyətləri maraqlandırır?***

– Ustad aşığa saz bağlamaq hər sazbəndin işi deyil. Aşıqlar hər ustaya saz bağlatmırlar, ancaq kamil ustalara müraciət edirlər. Aşıqlar üçün ən əsası sazın səsidir, gözəlliyidir.

– ***Sazı niyə məhz tut ağanından düzəldirlər?***

– Tut ağacı çox asan əyilir, naxışlı ağacdır.

– ***Sazın qolu hansı ağacdan hazırlanır?***

– Sazın qolu qoz ağacının özəyindən hazırlanır, çünki bərk ağacdır, çox keyfiyyətlidir. Qoz ağacının tərkibində yod olduğu üçün rütubətə, çürüməyə qarşı davamlıdır.

***– Ustad, sazı düzəltmək üçün materialı necə əldə edirsiniz, hardan gətirdirsiniz?***

– Mən Gürcüstandan gətirdirəm. Orda bilirəm ki, hansı kənddə nə var. Hər ağacdan saz düzəltmək olmur, ona görə oradan gətirdirəm.

***– İlk dəfə saz düzəltidiyinizi xatırlayırsınızmı?***

– Əlbəttə. Hüseyn Saraçlının yanına şəyird gedəndə bir həftə gecikmişdim. Dedi niyə gec gəldin? Balaca bir cürə göstərdim, bunu düzəldirdim, Hüseyn əmi, dedim. Cürəni bəyəndi. Səndən yaxşı sazbənd çıxar, bu sənəti də buraxma, dedi. Ondan sonra mənlə məşğul olmağa başladı, gördü ki, sazbəndliyi də bacarıram. Yavaş-yavaş sənətin sirlərini öyrətdi, ustalaşdırdı.

***– Sizə saz düzəltdirmək üçün müraciət edənlər ancaq aşıqlardırmı, yoxsa həvəskarlar da varmı?***

– Çoxu evində saz olmağını istəyən həvəskarlardır. Aşıqlar çox azdır, bu da təbiidir. Çünki aşıqlar bir yaxşı saz düzəltdirir, ömrü boyu da ondan istifadə edir.

***– Tanınmış aşıqlardan hansının sazını siz hazırlamısınız?***

Çox qədim sazları bərpa etmişəm. Məsələn bu yaxınlarda Hüseyn Saraçlının ustadının – Quşçu İbrahimin sazını gətirmişdilər yanıma. Yeni üz saldım, bərpa elədim. Aşıq Musa Qaraçöplünün sazını bərpa etmişəm, bəlkə də o sazın yüzdən çox yaşı vardı. Müasir aşıqların çoxunun - Aşıq Tərmeyxanın, Ramin Qarayevin, Xosrov Qarabağlının, Qərib İncəlinin, İslam Göyçəlinin, bu yaxınlarda İran aşıqlarından Muxtar Qayabaşının və başqalarının sazını mən bağlamışam.

***– Ustad, indi sazbəndlik kimi qədim sənəti gələcək nəsillərə öyrədəcək yetərincə ustad varmı?***

– İndi hamı əsasən yaxınlarını öyrədir. Mən yanıma gələn gənclərə təklif edirəm, şagirdə ehtiyacım var, yaşımın bu vaxtımda sənətimi öyrətməliyəm ki, məndən sonra kimsə qalsın.

***– Övladlarınızdan sənətinizi davam etdirən varmı?***

- Qızım jurnalistdir, oğlum da institututda müəllimdir. Oğlum saz çalır, amma özü üçün, həvəskardır. Oğlumu yanımda xeyli işlətmişəm, sənəti bilir, lazım olsa işləyə bilər. Ali təhsilli olduğu üçün ixtisası üzrə işləyir.

***– Aşıq Murad Kövrək dünyaya bir daha gəlsəydi yenə aşıq, sazbənd olardımı?***

- Bəli, yenə sazbənd, aşıq olardım.

***– Yəni həyatınızı yenidən yaşamaq istəyərdiniz?***

- Bəli, mənim üçün çox xoşdur ki, bir-birinə bağlı olan bu iki sənəti qoşa işlədim.

***– Ustad, bəzən saza səsgücləndirici yerləşdirirlər, buna münasibətiniz necədir?***

- Mən yaxşı baxmıram, buna hec ustadım da razı olmurdu. Lazım olanda da mikrafondan istifadə edirdi. Mənə müraciət edəndə razı olmuram, çünki mənim əlim gəlməz ki, sazı kəsim. Təbii səsini də itirir.

***- Maraqlı müsahibəyə görə sağ olun!***

**Müsahibəni apardı:**
**Elşad ÇOBANLI**

**(“Ozan dünyası” jurnalı, №2, 2010)**

# BƏKİR ƏHMƏDOV



Bəkir İmam oğlu Əhmədov 1954-cü il iyulun 4-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub, burada orta məktəbi bitirib. 1970-ci ildə o vaxtkı M.F.Axundov adına Xarici Dillər İnstitutuna daxil olub, bu ali təhsli ocağında oxuyub. Sənətə olan sonsuz marağı onu onu 1976-cı ildə Bakı Mədəni Maarif texnikumuna gətirib çıxarıb, bu təhsil ocağnda xalq çalğı alətləri şöbəsində təhsli alıb. 1979-cu ildə ali məktəbi bitirib Sumqayıt şəhərindəki N.Nərimanov adına Mədəniyyət evində əmək fəaliyyətinə başlayıb, aşıq Sədi Abbasovla birlikdə saz kursuna rəhbərlik edib. Kəmalə Qələndərli, Elməddin Məmmədov, Rəna Quliyeva, Günay Ramazanova, Qönçə Kərimova və başqaları bu sənətin incəliklərini məhz Bəkir Əhmədovdan öyrəniblər.

Bəkir Əhmədov “Pöhrə” aşıqlar ansamblına rəhbərlik edib.

Bəkir Əhmədov həm də mahir sazbənd kimi tanınıb. Belə ki, o, 1980-ci ildə Ağstafa şəhərində yaşayan sazbənd Yunisin şəyirdi olub, ondan sazbəndliyin sirlərini öyrənib. Aşıqlıqla yanaşı, həm də kamil sazbənd kimi tanınıb. Sağlığında özü həmişə deyərmiş ki, aşıqlığı aşıq Sədidən,

sazbəndliyi isə usta Yunisdən öyrənib. Aşıq kimi zil səsi, gözəl ifası ilə fərqləndiyi tək, düzəltdiyi sazlar da özünəməxsus dəst-xətti ilə seçilib.

Sazbənd-aşıq Bəkir Əhmədov 2006-cı il dekabrın 10-da dünyasını dəyişib.

2007-ci ilin may ayında Sumqayıt şəhərindəki N.Nərimanov adına Mədəniyyət evində usta Bəkirin "Xatirə gecəsi" keçirilib.

Nahaq deməyiblər ki, ustad oğlu şəyird olmaz. Bəkir Əhmədovun oğlu Rövşən başqa peşənin sahibi olsa da, atasından sazbəndliyin sirlərini də öyrənib, bu sənətin incəliklərini mənimsəyib.

# NİZAMİ ZÜLFÜQAROV



Nizami Ayaz oğlu Zülfüqarov 1954-cü ildə Bakı şəhərində anadan olub. 1979-cu ildə Gəncə Politexnik texnikumunu bitirdikdən sonra ixtisası üzrə işləməyə başlayıb.

Nizami ustad aşıq, həm də sazbənd kimi tanınan Ayaz Zülfüqarovun ailəsində dünyaya göz açdığından sazın-sözün əhatəsində böyüyüb, necə deyərlər ilk laylasını da sazın sədaları altında alıb. Təbii ki, belə bir mühitdə böyüyüb də, sazdan, sözdən aralı qalmaq mümkün deyildi və Nizami də atasının sənətinə biganə qalmayıb. Ustad oğlu şəyird olmaz deyirlər, Nizami də hələ uşaqlıqdan sazbəndliyə meyil salıb, bu sənətin sirlərini atasından öyrənib. Bağladığı sazlar ustad aşıqlar tərəfindən yüksək qiymətləndirilib.

Nizami hazırda Qazax rayonunda yaşayıb fəaliyyət göstərir, sazbəndliklə məşğul olaraq atasının sənətini yaşadır. O, sazda ifaları ilə də tanınır, şeir də yazır.

# ATLIXAN ALXANOV



Atlıxan Xanlar oğlu Alxanov 1954-cü ildə Laçın rayonunun Ağbulaq kəndində kolxozçu ailəsində anadan olub. 1971-ci ildə orta məktəbi bitirib. 1973-1975-ci illərdə hərbi xidmətdə olub.

Hərbi xidmətini başa vuraraq doğma yurda qayıdıb bir müddət kolxozda çalışıb, sonra isə Bakıya gələrək burada fəhlə işləyib. 1977-ci ildə Bakı Bədən Tərbiyəsi Texnikumuna daxil olub, 1979-cu ildə oranı bitirdikdən sonra təyinatla Laçın rayonuna qayıdaraq Ağbulaq kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. Hazırda həmin məktəbdə müəllim işləyir.

Gənc yaşlarından saza maraq göstərən Atlıxan Xanlar oğlu Aşıq Cabbarın təkidi ilə özünə saz alıb. Bakıda təhsil aldığı vaxt eyni zamanda aşıq sənətini öyrənməklə də məşğul olub. Tanınmış aşıqlarla görüşüb onlardan dəyərli məsləhətlər alıb. Bu sənətin sirlərini daha çox tələbəlik illərində Aydın Çobanoğludan öyrənib.

Aşıqlıqla bərabər sazbəndliyə də çox meyil göstərdiyindən dəfələrlə məşhur sazbənd usta Xudunun yanında olub. Ermənilərin əsassız torpaq iddiası nəticəsində doğma yurd-yuvasından didərgin düşəndən sonra isə sazbəndliyə

olan həvəsi daha artıb və saz düzəltməyə başlayıb. Saz düzəldə bilsə də, bu sənətin sirlərinə mükəmməl yiyələnmək üçün tanınmış sazbəndlərə üz tutub. Sazbənd kimi yetişməsinə görə Kövrək Murada minnətdarlıq edir, eyni zamanda usta Rizvandan da məsləhətlər aldığını deyir.

Hazırda müvəqqəti olaraq Ağcabədi rayonunda məskunlaşmış Atlıxan Alxanov aşıq və sazbənd kimi fəaliyyətini davam etdirir.

# QÜRBƏT YUSİFOV



Qürbət Şahvələd oğlu Yusifov 1955-ci ildə Qazax rayonunun Qazaxbəyli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək məqsədilə sənədlərini Gəncədəki Politexnik texnikumuna verib. Burada təhsilini uğurla başa vurub, istehsalatda çalışmaq imkanı qazansa da, ali təhsil almaq arzusu onu tərk etməyib və o, Gəncə Texnologiya İnstitutuna daxil olub. 1974-1976-cı illərdə hərbi xidmətdə olub.

Hələ uşaqlıqdan saza-sözə böyük həvəsi olan Qürbət Şahvələd oğlu ordudan tərxis olunduqdan sonra Qazax Mədəniyyət evində və musiqi məktəbində müəllim işləyib.

Aşıq sənəti ilə yanaşı gənc yaşlarından sazbəndliyə də meyl edən Qürbət Yusifov bu sənətin sirlərini aşıq-sazbənd Ayaz Zülfüqarovdan öyrənib.

Sazbənd Qürbət bu sənətin yaşaması naminə də əlindən gələni əsirgəmir, yeniyetmələrdə və gənclərdə bu sənətə marağın artmasına çalışır. Sazbəndliklə bağlı ustadından öyrəndiklərini böyük məhəbbətlə marağı olan gənclərə öyrədir. Onun övladları və Qasım Dünyamalıyev bu sənətin incəliklərini məhz ondan öyrəniblər.

Qürbət Yusifov Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

## HƏSƏN DƏRYAHQULİYEV



Düzü, haqqında eşitsəm, sənətindən, bu günkü sazbəndlik və müəllimlik fəaliyyətindən xəbərdar olsam da, şəxsən tanış deyildim. Bir xoş təsadüf nəticəsində onunla tanış oldum ki, bunun üçün də hər şeydən əvvəl sazın-sözün xiridarı, folklorşünas alim Elxan Məmmədliyə minnətdarlığımı bildirirəm.

...Zəngləşib, vədələşdik. Heç bir vasitəçisiz-filansız, təqdimatsız bir-birimizi elə uzaqdanca tanıdıq. Sanki illər öncəsinin tanışları idik. Adətən kiminləsə ilk tanışlıq zamanı yaşanan təbii gərginlikdən də əsər-əlamət yox idi. Görüşb hal-əhval tutduq. Şirin təbəssümü, səmimiyyəti onun barəsində təsəvvürümdə formalaşdrıdğım fikirləri bir qədər də möhkəmləndirdi. Əslində, mən onu heç başqa cür də təsəvvür eləmirdim də. Sazın-sözün beşiyində dünyaya göz açasan, beşiyin başında saz çalına, ruhun sazla qidalana, sazla mayalana san, özün də başqa cür olasan. Bunu heç ağıla belə gətirmək mümkün deyil. Onu mənə doğmalaşdıran hər ikimizin saza-söz bağlılığımızdan irəli gələn ruh yaxınlığı ilə yanaşı, həm də bir coğrafi yaxınlıq idi. O, Qzağın İncə dərəsindən, mən Borçalıdan. Yəni özümüz kimi, doğulub boya-başa çatdığımız el-oba da bir çox tellərlə bir-birinə bağlıdır.

Elə ilk görüşümüzdəncə onu oxuculara da təqdim etmək qərarına gəldim. Bəlkə də onun özünün buna o qədər də

ehtiyacı yoxdu. Sənəti, son illərdəki müəllimlik fəaliyyəti ilə onsuz da özü haqqında çox şey deyib. Üstəlik təvazökarlığı da bunu istəmədiyini deyirdi. Amma hər halda onu söhbətə çəkib məni maraqlandıran bəzi məqamlar barədə bilgilər "oğurlaya" bildim.

...Həsən Dəryahquliyev 1957-ci il avqustun 15-də məşhur saz-söz adamları ilə təkcə Qazaxda deyil, bütün Azərbaycanda məşhur olan İncə dərəsinin Kəmərli kəndində aşıq Şəmistanın ailəsində anadan olub. Qulağına ilk gələn saz səsi, gözünü açanda ilk gördüyü saz olub. Elə sazın-sözün sirlərini də atasından öyrənib. 1984-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirib. Hazırda Xırdaalan şəhər uşaq musiqi məktəbində saz müəllimi kimi fəaliyyət göstərir.

**Özünün dediklərindən:** İlk dəfə sazı nə zaman əlimə aldığımı xatırlaya bilmirəm. Təkcə onu bilirəm ki, təxminən 1963-1964-cü illərdə rəhmətlik atam Qazaxda yaşayan sazbənd Məhəmmədəlidən bacım Kifayət üçün bir cürə saz alıb gətirmişdi. Onda mən ağlayıb özümə zülm edirdim ki, mənə niyə saz almayıb. Atam əvvəlcə bacım Kifayətə sazda çalıb-oxumağı öyrətdi və sonralar toy-düyünlərə bərabər gedirdilər. Bəzən elə olurdu ki, el-el, mahal-mahal dolaşaraq toylar yola verir, ağır məclislər aparır, aylarla evə gəlmirdilər.

Bir dəfə Borçalının Təkəli kəndindən toy şənliyini aparmağa dəvət üçün adamlar gəlmişdi. Amma atam Naftalanda sanatoriyada dincəldiyindən evdən Kifayəti də tək buraxmaq istəmədilər. Toy sahibləri isə təkidlə xahiş edirdilər ki, artıq camaata bildirmişik ki, məclisi Aşıq Şəmistanla qızı Kifayət xanım aparacaq. Belə olanda toya Kifayətlə mən getməli oldum. Mən ilk dəfə idi ki, toy məclisi keçirirdim. İki gün davam edən məclisdə bizi gecə

saat 3-ə qədər buraxmadılar. Məclis əhli bəlkə də səhərə qədər də oturardı. Görünür bizim hər ikimizin yaşca kiçik olmağımıza görə qıymadılar. Toydan sonra bizi, söz verdikləri kimi, qaydasınca yola saldılar. Daha doğrusu, Təkəlidən olan Suca müəllim özü bizi evimizə gətirdi. Evə çatanda məni maşından düşməyə qoymadılar. Bir nəfər məni boyununa götürüb həyətimizə gətirdi. Xoşbəxtlikdən atam istirahətdən qayıtmışdı. Həyətdə bizi özü qarşıladı. Sevincdən gözləri yaşarmışdı. Bu, əsl ata sevinci idi. Onda mənim 12 yaşım vardı və elə o vaxtdan da məclislərə ayaq açdım.

Bu gün Həsən Şəmistan oğlu həm də bir sazbənd kimi tanınır. Necə oldu ki, aşıqlıqdan sazbəndliyə gəldin? – sualına isə o, belə cavab verdi:

– Saz xalqımızın ən qədim musiqi aləti, aşıqlıq ən ulu sənətidir. Babalrımızın bir əlində qılınc olanda, bir əlində saz olub. Saz igidlərimizin döyüş ruhunu artırıb həmişə. Eyni zamanda müsibətlərimizin, ağrı-acılarımızın, sevincimizin, kədərimizin tərcümanı olub saz. Amma bilmirəm bunu kim necə qiymətləndirəcək, mən hamımızın ağrılı yerimiz olan Qarabağ müharibəsi başlanandan – igid oğullarımız şəhidlik, torpaqlarımız işğal, soydaşlarımız qaçqın-köçgün taleyi ilə üzləşəndən sonra hesab etdim ki, artıq saz çalıb-oxumağa mənəvi haqqım yoxdur. Elə o vaxtdan məclislərə getmədim, çalıb-oxumadım. Bununla belə hiss edirdim ki, saz mənim taleyimdir, Haqq dünyasına qədər yol yoldaşımdır. Ondan ayrılmaq o qədər də asan məsələ deyil. Bu üzdən də meylimi sazbəndliyə saldım. Təbii ki, bünövrə olmadan birdən-birə sazbənd olmaq da asan iş deyil. Mənim əmilərim usta olduğundan bu sahədə müəyən vərdişlərim, təcrübəm vardı. Öz sazımı da yeri gələndə özüm təmir edir, xırda-para işləri görə

bilirdim. Bütün bunlar mənim sazbənd kimi fəaliyyətə başlamağımda böyük rol oynadı.

Həsən Dəryahquliyev həm də sazın yorulmaz təbliğatçısı və öyrədicisidir. Artıq 15 ildən çoxdur ki, müəllim kimi, bu sənətə gəlmək istəyən yeniyetmələrə, gənclərə sazın sirlərini öyrədir. Bakının Binəqədi rayonundakı 11 saylı musiqi məktəbində və Xırdalan şəhərindəki uşaq musiqi məktəbində saz müəllimi kimi çalışır. İndiyədək yüzlərlə gəncə bu sənətin sirlərini öyrədib. Bu barədə danışanda o deyir ki, son illərdə yeniyetmələrdə saza maraq güclənib. Və bu uşaqların arasında  sənətə ürəkdən bağlanan, gələcəklərinə böyük ümid bəslənənləri az deyil. Amma bununla belə, sadəcə olaraq "filankəs saz məktəbinə gedir, mən də gedim" prinsipi ilə gələnlər də var.

Bu sənətin gələcəyinə nikbin baxan Həsən Şəmistan oğlu son zamanlar  saza-sözə dövlət səviyyəsində böyük qayğı göstərilməsini də xüsusi vurğuladı, Xalq şairi Zəlimxan Yaqubun Azərbaycan Aşıqlar Birliyinin sədri vəzifəsinə seçilməsini alqışladığını bildirdi.

# SABİT MƏMMƏDOV



Sabit İsmayıl oğlu Məmmədov 1958-ci ildə Qazax rayonunun Kosalar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Sumqayıt Politexnik texnikumunda davam etdirib.

Özünə bir sənət seçməyə gəldikdə isə başqa yol seçib. Uşaqlıqda çoxları kimi o da bir çox peşəyə meyl göstərsə də, sonunda sazbənd olmağa qərar verib. Belə ki, o 14 yaşında olarkən qonşularında toy məclisi aparan aşıq Ədalət Nəsibovun ifası və sinəsindəki saz onu elə ovsunlayıb, elə valeh edib ki, böyüyəndə sazbənd olmağı qarşısına məqsəd qoyub. Elə o gündən bacardığı səviyyədə bu sənətlə məşğul olmağa başlayıb.

Oğlunun bu sənətə olan marağının güclü və fikrini qəti olduğunu görən atası ismayıl kişi onu dövrünün ən məşhur ustad sazbəndlərindən olan Məhəmmədəli kişinin yanına gətirir. Sabitin sazbəndliyə olan meylini yüksək qiymətləndirib, əl qabiliyyətinə bəyənərək gələcəyin kamil sazbəndi olacağına inansa da, bu böyük sənətkar onu özünə şəyird götürə bilmir. Belə ki, həmin ərəfədə artıq ustad olduqca yaşlı olduğundan buna sadəcə olaraq imkanı yox idi. buna baxmayaraq bu gənci ümidsiz də qaytarmır, ona dəyərli məsləhətlərini əsirgəmir, bir ağsaqqal və ustad kimi öz xeyir-duasını verir. Bu görüşdən bir neçə ay sonra Məhəmmədəli kişi rəhmətə getdiyindən sabit ondan çox da bəhrələnə bilməsə də, onun məsləhətləri gənc

sazbəndin sənət yolunda yolgöstərəni olur, hər yerdə köməyinə çatır.

Usta Məhəmmədəli kişini özünün bu sahədə müəllimi, ustadı hesab edən sabit Məmmədov hər zaman onu minnətdarlıqla xatırlayır.

Sazbənd Sabitin düzəltdiyi sazlar aşıqlar tərəfindən bəyəmilir, yüksək qiymətləndirilir. Özünün dediyinə görə indiyədək 500-dən çox saz düzəldib.

# ELBRUS ALLAHVERDİYEV



Elbrus Məhəmməd oğlu Allahverdiyev 1958-ci ildə Qazax rayonunun Qazaxbəyli kəndində anadan olub, burada ilk təhsilini alıb. 1980-1984-cü illərdə Ə.Əzimzadə adına Rəssamlıq texnikumunun “tərtibatçı rəssam” şöbəsində təhsil alıb.

E.Allahverdiyev 1989-cu ildə könüllü olaraq Milli ordunun sıralarına yazılıb və 1993-cü ilədək orduda xidmət edərək torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü ildə ordu sıralarından tərxis olunduqdan sonra sazbəndlik sənətini öyrənmək qərarına gəlib və bu məqsədlə də sazbənd Qürbətdən bu sənətin sirlərini öyrənməyə başlayıb, indiyədək düzəltdiyi sazlardan aşıq Hüseyn Əzizoğluna, aşıq Məqsədə, aşıq Əjdərə, aşıq Eldara hədiyyə də edib.

# RİZVAN QURBANOV



Rizvan Şahmalı oğlu Qurbanov 1959-cu il martın 24-də Göyçə mahalının Nərimanlı kəndində ziyalı ailəsində anadan olub. Doğma kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanizasiya fakültəsinə qəbul olunub. 1979-1981-ci illərdə ordu sıralarında xidmət edib, hərbi xidmətini başa vurduqdan sonra isə istehasalatda çalışmaqla yanaşı təhsilini də davam etdirib, 1986-cı ildə ali təhsilini başa vurub.

Bədnam qonşularımızın əsassız torpaq iddiası sayəsində yüz minlərlə soydaşımız kimi, o da 1988-ci ildə öz dədə-baba yurdundan didərgin düşərək Bakı şəhərində məskunlaşıb. Burada tale onu kimya elmləri namizədi, sazbənd Pənah Qurbanovla rastlaşdırıb və onun məsləhəti ilə də sazbəndliklə məşğul olmağa başlayıb. O dövrdə Azərbaycan Aşıqlar Birliyinin sədri, Xalq şairi Hüseyn Arifin tövsiyəsi ilə "Miskər" kooperativinin sədri Əli Misgər onlara bu işdə böyük qayğı göstərib, emalatxana və sazbəndlik üçün lazım olan avadanlıqlarla təmin edib.

Göstərilən etimadı doğruldan Rizvan Qurbanov qısa müddətdə mahir sazbənd kimi Azərbaycanda məşhurlaşıb, qonşu ölkələrdə də tanınıb. Onun düzəltdiyi sazlar Türkiyə, Cənubi Azərbaycan, Orta Asiya respublikaları, Çin (uyğurlar yaşayan bölgədə), Almaniya, İsrail və digər ölkələrə də gedib çıxıb. Hətta Roma papası ölkəmizdə

qonaq olarkən ona hədiyyə olunan sazı da məhz usta Rizvan düzəltmişdir.



Usta Rizvan sazın ümumi ahəngini pozmadan müasir texniki elektron vasitələrdən istifadə edərək onun böyük məclislərdə istifadə olunması imkanlarını daha da artırmışdır. O, həmçinin deyir ki, eyni zamanda sazın kökünü dəyişmək üçün yardımçı hissə də düzəltmiş, kompüter vasitəsilə pərdələrin düzgün düzülüşünü tapmışdır ki, bundan da aşıqlar və saz ifaçıları bəhrələnirlər. Sazın aşağı xərəyinin arxasında sim bağlanan yerdə də dəyişiklik edib.

Usta Rizvan bu gün ən çox tanınan, sevilən, əlinin işi yüksək qiymətləndirilən sazbəndlərdən biridir. Şairlərimiz də onun şəninə şeirlər qoşmuşlar. Əbülfət Şişqayalı onun barəsində belə deyir:

*Rizvan, sənin telli sazın*
*Nəsillərə qalacaqdır.*
*Tarixin əngin qatında*
*Onu zaman çalacaqdır.*

Məmməd İlqar ona poeziyanın ecazkar dili ilə belə müraciət edir:

*Usta Rizvan, ustasansa,*
*Gör bu sazın dərdi nədir.*
*Dərdin, qəmin bol vaxtında*
*Salıb bizi dərdə, nədi?!*



Yusif Nəğməkar isə belə deyir:

*Usta Rizvan, xeyir işin*
*Dolaşıb şərdə qalmasın.*

*Zər atanda elə düşsün,*
*Yaman göz zərdə qalmasın.*

Aşıq Mahal Kəmərli sazbəndə məhəbbətini belə izhar edir:

*Əllərin var olsun, ay usta Rizvan,*
*Hər duyan ürəyi alacaq sazın.*
*Səsi avazımla əkizdir, inan,*
*Könüldən nə keçsə, çalacaq sazın.*

Şair Zəki İslam da usta Rizvana şeir həsr edib.

**Zəki İslam**

## AXTAR

Yaxşı söz soruşan, yaxşı söz gəzən,
Xuduya rəhmət de, gümanı axtar.
Çox uzağa getmə, gözəl Bakıda
Sazbənd çoxdu, ancaq Rizvanı axtar.

Bizdən salam söylə qağam Rizvana,
Göyçədən veribdir ağam Rizvana,
Duam var neçə ki sağam, Rizvana,
Kamil sənətkardı, zamanı axtar.

İlk sazbənd kim oldu, nə hava çaldı,
O hava harada zülmətə daldı?
Şeytan əməlitək yadigar qaldı,
Çalınıb, çalınır, Amanı axtar.

Sazı sevən sazdan doymaz çaldıqca,
Saz hünərdi, saz qeyrətdi olduqca.
Barmaqların pərdələri vurduqca,
Təzyanə dindirən cananı axtar.

Sazın səsi qəmnən ayrır insanı,
İnan, yox eyləyir ahı, amanı.
Yaxşı öyrən yetmiş iki havanı,
Zəki İslam, təcnis, divani axtar.

## NEMƏT ZEYNALOV



Nemət İsmayıl oğlu Zeynalov 1959-cu ildə Gədəbəy rayonunun Daryurd kəndində andan olub. 1967-ci ildə Daryurd kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1977-ci ildə orta məktəbi bitirib. Elə həmin il Bakıdakı Bədən Tərbiyəsi Texnikumuna daxil olub. 1979-cu ildə texnikumu bitirdikdən sonra bir il Gədəbəy rayonunun Sarıhəsənli kəndindəki məktəbdə ixtisası üzrə müəllim işləyib, 1980-ci ilin may ayında hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurduqdan sonra doğma yurda qayıdan Nemət Zeynalov Gədəbəyin Kiçik Qaramurad kənd orta məktəbində ibtidai hərbi hazırlıq üzrə rəhbər təyin olunub. Hal-hazırda da bu məktəbdə çalışır.

Hələ orta məktəbdə oxuduğu vaxtdan aşıq sənətinə böyük marağı olub. hətta uşaq həvəsi ilə özünə saz düzəltmək istəyib. Atası İsmayıl kişinin meşədən yanacaq məqsədilə gətirdiyi fısdıq ağacının kötüyünün içini oyub, sinə əvəzinə faner parçası vurub, armud ağacından isə qol düzəldib və başlayıb çalmağa. Sonradan hiss edib ki, onun saza olan bu həvəsi ötərgi uşaq həvəsi deyil. Sazbəndliyə

marağı daha da artıb, xalqımızın bu qədim sənətini yaşatmaq qərarına gəlib.

Nemət İsmayıl oğlu deyir ki, sazbənd kimi işə başladığı vaxtdan bu günədək 700-dən artıq saz düzəldib və əlinin işi ilə tanınmış ustad aşıqlardan İsfəndiyar Rüstəmovun, Sədaqət Rəsulovun, Səyyad Pənahovun, Zahid Aslanoğlunun, Seyfəddin Əhmədovun və digərlərinin rəğbətini qazanıb.

N.Zeynalov hal-hazırda da sazbəndlik sənətini davam etdirir.

# BAFƏLİ ADIGÖZƏLOV



Bafəli Əli oğlu Adıgözəlov 1959-cu ildə Borçalıda – Bolnisi rayonunun Dəllər (Muşevan) kəndində sənətkar ailəsində anadan olub. Burada səkkizillik məktəbi bitirib.

Hələ uşaqlıqdan saza-sözə böyük maraq göstərən Bafəli aşıq sənətinin sirlərini atası Əli kişidən öyrənib. Aşıqlıqla yanaşı eldə-obada onu həm də mahir zurnaçı kimi də tanıyırlar. Həm sazı, həm də zurnası ilə neçə-neçə toyların, el şənliklərinin yaraşığına çevrilib.

Bu gün Bafəli Adıgözəlov Borçalıda həm də mahir bir sazbənd kimi tanınır. Sazbəndliyin sirlərini həmyerlisi aşıq-sazbənd Kövrək Murad və onun qardaşı İmdad Sarıyevdən öyrənib. Sazbənd kimi müstəqil fəaliyyətə başlamasından 20 ildən artıq vaxt keçir.

Sənətə gəlişindən danışan Bafəli belə deyir: “Mən dünyaya göz açandan evimizdə saz görmüşəm, necə deyərlər, beşiyimin başında saz çalınıb. Rəhmətlik atam aşıq Dəllər Əli məni sazla böyüdüb. Yəni sənət butamı atam verib, ilk badəni onun əlindən içmişəm. Üstəlik, evimizdə o dövrün böyük ustad aşıqlarının çalıb-oxumalarını

dinləmişəm. Bir aşıq kimi formalaşmağımda əmim aşıq Əhədin, Kamandar Əfəndiyevin, Əhməd və Məhəmməd Sadaxlıların, Əmir Saralların, Pərvanə Həsənin və Lətif Gəncəlinin əməyi də az olmayıb."

On yaşından saz çalmağa başlayan Bafəli hərbi xidmətdən qayıtdıqdan sonra qara zurnada çalmağı da öyrənib, məşhur zurnaçılardan bu sənətin sirlərini mənimsəyib.



Sazbəndliyə gəldikdə isə bunları deyir: "Hər dəfə sazı əlimə alıb çaldıqca içimdə bir hiss baş qaldırırdı ki, görəsən nə vaxtsa özümün düzəltdiyim sazda çalıb-oxuyacammı?! İstəyirdim ki, mən saz içində olum, saz da mənim içimdə. Nəhayət, bir gün bu arzunun işığında üz tutdum həmyerlim Kövrək Muradın yanına. Düzü, buna qədər də vaxtım olduqca onun yanına gedir, ürəyimdən keçənləri deməyə cəsarət etməsəm də, əlinin işinə baxıb, nəsə götürməyə çalışırdım. Sağ olsun, usta Murad da fikrimi razılıqla qarşıladı və beləcə bizim usta-şəyird münasibətimiz başladı".

Bafəli ilk dəfə 1979-cu ildə saz bağlayıb.

Bu gün sazbənd kimi 20 illik təcrübəsi olan Bafəli Adıgözəlov saz düzəltməyin vacib şərtlərindən danışarkən belə deyir: "Saz düzəltmək üçün istifadə olunan tut və qoz

ağacları nə qədər yaşlı olsa, bir o qədər yaxşıdır. Tut ağacından 50 sm-lik götük kəsdikdən sonra onu 4 hissəyə bölmək lazımdır ki, tərsini, avandını biləsən. Ağacın gün döyən tərəfindən sazın sinəsi üçün istifadə etmək lazımdır. Geridə qalanlardan isə qabırğa üçn istifadə etmək olar. Yeri gəlmişkən deyim ki, qabırğa düzəltmək üçün qaraağac, çinar və gilasdan da istifadə etmişəm. Amma onların heç birində əyilmə effekti tut ağacındakı kimi olmur. Qoz ağacını isə 1 m uzunluqda kəsmək lazımdır ki, qurudarkən uclarda əmələ gələn çatları kəsib götürdükdən sonra qol düzəltmək üçün normal uzunluq qalsın. Sazı düzəldərkən hər bir hissənin ölçülərinə diqqət etmək də vacib şərtdir, yəni bunların da öz standartları var.

Beçə, qol, aşıqlar və sazı beçəyə (beçə qolu çanağa birləşdirən hissəyə deyilir) və içəri yamşağa birləşdirən ağac çüylər (mismar əvəzi ağacdan düzəldilən hissələr) qoz ağacından olur. Tut ağacından isə sazın çanağı – qabırğalar və sinə düzəldilir. Ana qabırğanın qalınlığı 5 mm olmalıdır, hündürlüyü isə sazın çanağının böyük və ya kiçiliyindən asılıdır. Ana sazın ana qabırğasının bir ucunda eni 12-14 sm., o biri ucda isə 4-5 sm. olmalıdır. Bala qabırğalar isə 5-6 sm. enində olsa kifayətdir ”.

Usta Bafəli deyir ki, sazın ana, orta və yaxud cürə saz olmasından asılı olmayaraq hamısında 9-10 qabırğa olmalıdır. 5 mm-lik taxtalar 4-5 saat suda qaynadılır ki, onu əymək asan olsun.  Eləcə də çanağın böyük və ya kiçikliyindən asılı olaraq beçənin uzunluğu 8 sm olmalıdır. Daraqdan xərəyə və baş xərəkdən aşağı birinci baş pərdəyədək məsafə də 8 sm olmalıdır. Şah pərdə isə qolun tən ortasında olur. İstər xatabənd, istərsə də adi qolun uzunluğu çanağın ölçüsünə uyğun olmalıdır. Qolun baş tərəfində aşıqlar (simin bir ucu aşıqlara, digər ucu isə

çanağa bərkidilmiş darağa bərkidilir) üçün 5; 7; 9 və yaxud 11 deşik açılır. Deşiklərin arası 4 sm olmalıdır ki, sazı kökləyərkən onları rahat fırlatmaq mümkün olsun.

Xərəklərə gəldikdə isə, onlar sümükdən, buynyzdan, taxta parçasından ya da plastik materialdan hazırlanır.

Sazın düzəldilməsi texnologiyasından böyük həvəs və peşəkarlıqla danışan usta Bafəli indiyədək 200-dən çox saz bağlayıb. Sifarişlə düzəltdiklərindən başqa onlarla sazı da dostlarına, yaxınlarına hədiyyə edib. Yeri gəlmişkən, Gürcüstan prezidenti M.Saakaşvili Novruz bayramında Marneuliyə gələrək soydaşlarımızla görüşərkən ona hədiyyə olunan sazı da o düzəldib.

Bu gün Borçalıda onu tanımayan yoxdur. Kimdən soruşan, əlinin işini tərifləyib, yerini nişan verəcək. Hazırda Marneuli şəhərində fəaliyyət göstərir. Ustadı Muraddan öyrəndiklərini böyük minnətdarlıq və qədirbilənlik hissi ilə qardaşları Pənah və Qəribə, oğlu Elxana da öyrədib.

***Bəfalı Adıgözəlov təbi gələndə şeir də yazır. Onun iki şeirini oxucularımıza təqdim edirik.***

***Bafəli ADIGÖZƏLOV***

## OĞLUMA NƏSİHƏT

Əzəl Bismillah de, bir "Divani" çal,
Öyrən oğul, mənnən gora getməsin.
Hər ustad bildiyin etməz xiridar,
Öyrən oğul, mənnən gora getməsin.

Keçəndə "Təcnis"ə ana laylası,
Bütün dərdlilərə vardı çarası.
Sazın şah köküdü onun binası,
Öyrən oğul, mənnən gora getməsin.

Götür el havası, bir "Qaraçı" çal,
"Kərəmi", "Dilqəmi", bir "Turacı" çal,
Sazı susdurma, çal, "Zarıncı" çal,
Öyrən oğul, mənnən gora getməsin.

Yeddi kök öyrədim halalik sənə,
Bir gün olar, rəhmət deyərsən mənə.
Sənətdə düşməynən heç vaxt çətinə,
Öyrən oğul, mənnən gora getməsin.

Girəndə məclisə, sazı qoşa çal,
Aciz insanları, oğul, başa sal.
Şəyirdlər öyrədib bərkə-boşa sal,
Öyrən oğul, mənnən gora getməsin.

Atalar sözünün olmaz davası,
Yetmişdən artıqdır sazın havası.

Xəstəyə dərmandı şirin avazı,
Öyrən oğul, mənnən gora getməsin.

"Ustad oğlu şəyird olmaz", bilirsən,
"Cəngi" üstə düşmən bağrı dəlirsən.
"Ruhani"də qəm-qüssəni silirsən,
Öyrən oğul, mənnən gora getməsin.

Eşit Bəfalını, aləmə səs sal,
Özün şöhrət qazan, ellərdə ucal.
Nəsihət bəsindir, bir "Müxəmməs" çal,
Öyrən oğul, mənnən gora getməsin.

## BİR BAHARSAN

Ürəyində qəm olsa da,
Sən könlümdə bir baharsan.
Qəm könlümü çuğlasa da,
Sən könlümdə bir baharsan.

Ömür sənsiz puç olsa da,
Pünhan sevdaya dalsa da,
Saçlarıma qar yağsa da,
Sən könlümdə bir baharsan.

Hicran yeli olur zalım,
Dindirmə, çaşır xəyalım.
Sızıldama, dərdin alım,
Sən könlümdə bir baharsan.

Axıtma gözün yaşını,
Sürmələ kirpik-qaşını.
Kəsdim hər bələn başını,
Sən könlümdə bir baharsan.

Nələr düşür gör yadıma,
Yetən yoxdu imdadıma.
Qoysan çatam muradıma,
Sən könlümdə bir baharsan.

A dağlarda gəzən Pəri,
Bafəlinin dil əzbəri,
Kim dərər qönçə gülləri,
Sən könlümdə bir baharsan.

# VALEH MƏMMƏDOV



Valeh Əliyar oğlu Məmmədov 1959-cu ildə Dağ Borçalının İlməzli kəndində (sovet dönəmində Ermənistanın tabeliyinə qatılan bu kəndin əhalisi 1988-ci ildə öz dədə-baba yurdlarından deportasiya olunub) anadan olub. 1976-cı ildə həmin kənddə orta məktəbi bitirdikdən sonra ordu sıralarında hərbi xidmət edib.

Hələ uşaqlıqdan saza-sözə böyük həvəsi olub, dədə-baba yurdundan didərgin düşüb Bakıda məskunlaşdıqdan sonra bu həvəsi daha da artıb. Ustad aşıq Kamandarla tanışlığı isə onun həyatında mühüm rol oynayıb. Bu böyük ustadın məsləhətiylə sazbəndliyə başlayıb. İlk məsləhətlərini bu böyük ustaddan alan Valeh Məmmədov sonradan sazbəndliyin sirlərini usta Qəzənfərdən öyrənib.

## ŞAHNİYAR ƏSƏDOV



Şahniyar Ziyad oğlu Əsədov 1962-ci il dekabr ayının 19-da Tovuz rayonunun Dəlləkli kəndində anadan olub. 1979-cu ildə Şamlıq kənd orta məktəbini bitirib. Sonra bir müddət hərbi xidmətdə olub. Belə ki, 1981-ci ildə həqiqi hərbi xidmətə çağırılan Ş.Əsədov ordu sıralarında xidmətdə ikən burada həm də təhsil alaraq hərbi mühəndis ixtisasına yiyələnib və 1989-cu ilədək keçmiş SSRİ-nin Silahlı qüvvələrində qulluq edib.

1990-cı ildə doğma vətənə qayıdan Şahniyar Ziyad oğlu müxtəlif sahələrdə çalışsa da, daha çox ağac ustası kimi tanınır. 1993-cü ildən həm də sazbəndliklə məşğul olur. Sazbəndliyə gəlişi barədə danışanda deyir ki, hələ uşaqlıqdan bu sahəyə marağım böyük idi, əlimə keçən qoz ağacından uşaq fantaziyamla saz düzəltməyə çalışırdım. Sazın-sözün beşiyi olan Tovuzda dünyaya gəlib boya-başa çatan Şahniyarda bu həvəs ötəri olmayıb və yuxarıda da qeyd etdiyimiz kimi, 1993-cü ildən əsas işi ilə yanaşı, sazbəndliklə də məşğul olmağa başlayıb. Bu sənətin sirlərini öyrənmək üçün ayrıca bir ustanın yanında şəyird olmasa da, sazbənd Həsən Şəmistan oğlundan bəhrələndiyini, ondan lazımi məsləhətlər aldığını minnətdarlıq hissi ilə qeyd edir.

Ş.Əsədov hazırda Xırdalan şəhərində yaşayıb fəaliyyət göstərir.

# MƏCNUN MƏMMƏDOV



Məcnun İslam oğlu Məmmədov 1963-cü ildə Borçalıda – Bolnisi rayonunun Qaratikan kəndində sazbənd ailəsində anadan olub. Orta təhsilini qonşu Dəllər (Muşevan) kəndində alıb, 1980-ci ildə bu kənddəki orta məktəbi bitirib. 1982-1984-cü illərdə ordu sıralarında xidmət edib.

Yaxşı deyiblər ki, ustad oğlu şəyird olmaz. Məcnun da gözünü açandan evdə saz görüb, atası saz düzəldəndə uşaq marağı ilə ona diqqət kəsilib, bacardığı işlərdə kömək edib. İllər bir-birini əvəz etdikcə, özü də böyüyüb, arzuları, istəkləri də. Bu arzunu atasının sənətinə vurğunluqla yanaşı, evlərinə gəlib-gedən aşıqlarla ünsiyyətdə olması da möhkəmləndirib. Odur ki, orta məktəbi bitirərkən gələcək həyat yolunu müəyyənləşdirməkdə çətinlik çəkməyib. Çünki hələ uşaqlıqdan özü ilə birgə böyüyən arzusunu reallaşdırmağın vaxtı çatanda qərarı qəti idi:

atasının yolunu davam etdirərək sazbənd olmaq. Axı, atasından öyrəndiklərinə söykənərək özünə güvənirdi. Güvənirdi ki, sazbənd kimi atasının layiqli davamçısı olacaq.

Hərbi xidmətini başa vurub vətənə qayıdan Məcnun Məmmədov müstəqil olaraq sazbəndliyə başlayıb. Tezliklə mahir usta kimi Borçalıda tanınıb, sorağını eşidib ətraf bölgələrdən də ona müraciət edənlər olub.

Hazırda fəaliyyət göstərən sazbəndlər arasında özünəməxsus yeri olan M.Məmmədov 1994-cü ildən Bakıda yaşayıb fəaliyyət göstərir. Burada da sevimli sənətini davam etdirir.

# VALEH İSMAYILOV



Valeh Süleyman oğlu İsmayılov 1963-cü ildə Qazax rayonunun Məzəm kəndində anadan olub. İlk təhsilini də burada alıb. Səkkizinci sinfi bitirdikdən sonra təhsilini Qazaxdakı Texniki-peşə təhsili məktəbində davam etdirib. 1980-ci ildə burada təhsilini başa vuraraq dülgərlik peşəsinə yiyələnib.

1981-ci ildə hərbi xidmətə çağırılan V.İsmayılov 1983-cü ildə ordu sıralarından tərxis olunduqdan sonra ata-baba yurduna qayıdıb. Qonşu Bağanıs Ayrım kəndindəki usta Səhlədardan öyrəndikləri əsasında sazbəndliyə başlayıb.

1998-ci ildə Bakıya yaşayıb köçəndən sonra Valeh Süleyman oğlunun sazbənd kimi fəaliyyət göstərməsi üçün daha geniş imkanlar açılıb. Daim öz üzərində çalışıb, bilmədiklərini öyrənməyə cəhd edib. Elə buna görə də gündən-günə bir sənətkar kimi təkmilləşib, püxtələşib. Sazbənd Rizvan Qurbanovla sıx əlaqə saxlaması da onun sazbənd kimi tanınmasında, kamil sənətkar kimi yetişməsində müəyyən rol oynayıb.

Valeh İsmayılov hazırda Bakının Xəzər rayonunda yaşayıb fəaliyyət göstərir.

## BÖYÜKAĞA VİCUDİ (PİROĞLU)



Aşıq Böyükağa Vicudi (Piroğlu) 1964-ci ildə iyul ayının 28-də Cənubi Azərbaycanda, Qaradağın Mavazxan mahalının Kivic kəndində anadan olub.

Aşıq sənətinə kiçik yaşlarından böyük maraq göstərən Böyükağa aşıq Hacı Əli İbadi, Aşıq Həsən İsgəndəri, Aşıq Dehqan Urmiyalı, Aşıq Rəsul Qurbani və məşhur şair Yadulla Səkibinin yanında sənətin sirlərini öyrənib.

Ustadlardan öyrəndiyini gənclərdən əsirgəməyən Böyükağa Vicudinin bu gün xeyli sayda şagirdləri var.

Aşıq Böyükağa eyni zamanda çağdaş dövrümüzdə Güneyin ən məşhur sazbəndlərindəndir. Onun hazırladığı sazlar müxtəlif beynəlxalq musiqi festivallarında birinciliyə layiq görülüb və Hollandiya, ABŞ, Almaniya və s. kimi bir çox ölkərin muzeylərində saxlanılır. Onu da qeyd edək ki, onun bir sazı da İranın Mədəniyyət Nazirliyinin muzeyində saxlanılır. Böyükağa Vicudi bir aşıq, sazbənd olmaqla yanaşı, həm də Piroğlu təxəllüsüylə aşıq şeiri şəklində gözəl şeirlərin də müəllifidir. Bu istedadı Böyükağaya müxtəlif mədəniyyət festivallarının diplomlarını və birinciliklərini qazandırıb. Gənclik illərində Böyükağanın rəhbərlik elədiyi musiqi qrupu İran Aşıq Musiqi Olimpiadasının qalibi olub.

Vicudi qeyd edir ki: “aşıq sənəti Azərbaycan folklorunu tamamlayan ulu bir sənətdir və əgər bütün Azərbaycanın ozan aşıqları, aşıq şairləri olmasaydı ana dilimiz türk dili bu qədər güclü olmazdı”.

Aşıq Böyükağa Vücudi hər bir saz şeirlərinin birində belə deyir:

*Əsrlərin yüz qalası,*
*Cavidanın Bəzz qalası,*
*Bakıdakı Qız qalası,*
*Təbrizdəki Ərkəm, oğul,*
*Türk oğluyam, türkəm, oğul.*

# FƏRMAN MAHMUDOV



Fərman Xudaverdi (Xudu) oğlu Mahmudov 1965-ci il dekabrın 19-da Tovuz rayonunun Yanıqlı sovetliyinin Məşədilər kəndində məşhur sazbənd Usta Xudunun ailəsində dünyaya gəlib. 1973-cü ildə həmin kənddəki orta məktəbin birinci sinfinə daxil olub, 1983-cü ildə burada təhsilini başa vurub. 1984-1986-cı illərdə ordu sıralarında xidmətdə olub.

Uşaqlıqdan saza-sözə böyük marağı olan Fərman əvvəlcə saz çalıb, sonra isə sazbəndliyə meyil edib, atasının yanında sazın yardımçı hissələrini düzəldərək sənətin sirlərini öyrənib. Onun gördüyü işləri bəyənən atası günlərin birində deyib ki, artıq vaxtdır, sərbəst olaraq özün bir saz bağla. Onun ilk əl işi həm atası Sazbənd Xudunun, həm də bu sənətdən başı çıxanların xoşuna gəlib. Və elə vaxtdan da fərmanın sənət yolu başlayıb.

1986-cı ildə hərbi xidmətini başa vurduqdan sonra atası Xudu Mahmudovla bərabər çalışıb. 2004-cü ildə atası

dünyasını dəyişəndən sonra isə sazbənd kimi fəaliyyətini müstəqil olaraq davam etdirir. Bu gün onun düzəltdiyi sazlar məşhur aşıqlarımızın sinəsində dillənir. Onun düzəltdiyi sazlardan iki dəfə möhtərəm Prezidentimizə də hədiyyə olunub.

Atasının sənətini uğurla davam etdirən Fərman onu həm də oğlu Niyaməddinə öyrədir.

## FƏRMAN XUDUOĞLU: HƏR SƏNƏTKARIN ÖZ YOLU, ÖZ DƏST-XƏTTİ VAR

***– Gəlin söhbətimizə bir qədər əvvəldən başlayaq. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da sazbənd kimi məşhur olan usta Xudu bu sənətə necə gəlməsi barədə sizə nə deyirdi?***

– Atam çox erkən – üç aylıq ikən atasını itirib və həyatda nəyə nail olubsa ancaq öz gücünə, öz qabiliyyətinə əldə edib. Babam dülgər imiş. Atam isə uşaqlıqdan saza-sözə meyilli olsa da, əvvəlcə kənddə bərbər kimi tanınıb, sonra isə dərzilik öyrənib. Hərbi xidmətdən qayıtdıqdan sonra isə bir müddət sovxozda çalışsa da, yenə də sazın xəyalı ilə yaşayıb. Qonşu Tatar kəndində Nuru adlı aşıq olub. Atam danışardı ki, bir neçə gün dalbadal onun simasında ağsaqqal bir kişi yuxuma girib dedi ki, sənə sazbəndlik peşəsi verilir və elə yuxuda da ona sazbəndliyi öyrədib. Üstəlik deyib ki, bu sənət sənin ocağında daimilik olacaq. Bu hadisədən iki ay sonra atam görür ki, artıq sazbəndliyi öyrənib (təbii ki, yuxuda gördükləri əsasında). Bir gün nənəm görür ki, atam ağacdan yonub nəsə düzəldir. Soruşur ki, a bala, nə düzəldirsən belə?

Atam deyir ki, mənə yuxuda saz düzəltmək öyrədiblər, indi özümü sınamaq istəyirəm.

Bax, beləcə, atam başlayıb sazbəndliyə. Özü danışardı ki, ilk düzəltdiyim sazı qonşuluqda yaşayan Telman adlı bir sürücü aldı, ikinci sazı isə bazarda satdım. Bundan sonra atam düzəltdiyi sazı heç vaxt bazara çıxarıb müştəri axtarmayıb, müştərilər onun sorağı ilə evimizə gəliblər.

***– Təbii ki, rəhmətlik usta Xudunun yanına tanınmış aşıqlar tez-tez gəlib-gedirdi. Onlardan kimləri xatırlayırsınız?***

– Evimizə gəlib-gedən tanınmışlar çox olub. Amma burada atamın özünün söylədiyi bir xatirəni danışmaq istəyirəm. Atam danışırdı ki, cavan vaxtlarımda bir gün Borçalıdan Əmrah Gülməmmədov gəlib. Onun düzəltdiyi sazlara baxıb bir qədər fikrə gedəndə atam soruşub ki, Əmrah əmi, olmaya düzəltdiyim sazları bəyənmədin. Əmrah kişi cavab verib ki, yox ay bala, bəyəndim, amma heyif ki, sənin düzəltdiyin saz mənim qocalan vaxtıma düşdü.

Atam bu böyük ustadla həmin görüşünü həmişə minnətdarlıqla xatırlayardı. Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Əhməd Sadaxlı, Ədalət Nəsibov, Xanalr Məhərrəmov, Şirvanlı aşıq Mahmud və daha kimləri deyim, hamısının atamla isti münasibəti vardı.

***– Sizcə, onu sevdirən nə idi?***

– Məsəl var, deyərlər hər aşpazın əlinin öz dadı var. Bu mənada hər sənətkarın da öz yolu, öz dəst-xətti, sənətkar kimi incəlikləri var. Atamı tərifləmək üçün demirəm, bunu hamı deyir, onun düzəltdiyi sazın səsi həmişə fərqlənib, seçilib, yəni özünəməxsus şəkildə danışıb.

***– Bu gün siz də sazbəndsiniz. Onun düzəltdiyi sazı başqa ustaların düzəltdiklərindən fərqləndirən nə idi, bunu bir sənətkar kimi necə izah edərsiniz?***

– Bəzən atamın yanına saz gətirirdilər ki, usta, bunun simini dəyiş. Atam sazı əlinə götürüb similərini dəyiş-məzdən əvvəl ona əl gəzdirərdi. Bir də görürdün ki, sazın sinəsini azca yuxaldır, yaxud başqa bir hissəyə əl gəzdirir, sonra simləyib sahibinə qaytarır. Bütün bunları söhbət edə-edə elə ustalıqla edərdi ki, sazın sahibi heç başa düş-məzdi. Demək istəyirəm ki, saz düzəltməyin çox incə-likləri var. Gərək hər şey yerli-yerində olsun.

Atam hər materialdan saz düzəltməzdi. Tut ağacı üçün Azərbaycanı qarış-qarış gəzər, hətta qonşu Gürcüstana, Dağıstana da gedərdi. Hara getsə ilk növbədə tut ağacı ilə maraqlanardı. Özü də ağacdan başı elə çıxardı ki, uzaqdan baxandaca bilərdi ki, bu ağacın çürüyü varmı, ondan nə çıxar. Hətta bəzən səhər yuxudan durub deyirdi ki, gecə yuxuda görmüşəm ki, məsələn, Qazaxın filan kəndində yaxşı tut ağacı var, o kənddəki dostumgilə gedək, görək düzdürmü? Gedib görərdik ki, atamın yuxuda gördüyü doğrudur.

***– Deyirlər, ustad övladı şəyird olmaz və siz də saz-bəndsiniz. Ailədə atanızın sənətini daha kim davam etdirir?***

– Biz üç qardaşıq. Üçümüz də atamızdan bu sənəti mü-kəmməl mənimsəmişik. Mənim əsas məşğuliyyətim saz-bəndlikdir. O biri qardaşlarım isə başqa sahədə çalışsalar da, boş vaxtlarında gəlib mənə kömək edirlər. Mənim oğlum da babasının yolunu davam etdirir.

***– Siz özünüz neçə ildir ki, bu sənətlə məşğulsunuz?***

– İlk sazımı səkkizinci sinifdə oxuyanda düzəltmişəm. Artıq o vaxtdan 30 ildən artıq bir müddət keçir.

***- Sazbənd olmağı atanız məsləhət gördü, yoxsa özünüz bu peşəni seçdiniz?***

- Atam məsləhət gördü. Çünki ona yuxusunda demişdilər ki, bu sənət sizin ocağa əbədilik verilir, ocağınızın ruzusu bu sənətdən gələcək. Bu sənəti öz nəslinə ötürərsən. Buna görə ağlım kəsəndən mən də bu sənətlə məşğulam. Atam rəhmətə gedəndə vəsiyyət elədi ki, siz də bu sənəti öz övladlarınıza öyrədin. Oğlum Niyaməddin artıq öyrənib.



Allaha çox şükür ki, atamın vəsiyyətinə əməl etmişik. Bu gün demək olar ki, Türk dünyasının hər yerindən bizə müraciət edənlər olur.

***- İlk saz düəzltdiyin günü necə xatırlayırsan? Onu atana göstərəndə necə qarşıladı?***

- Bayaq da dediyim kimi, ilk dəfə səkkizinci sinifdə oxuyanda saz düzəltmişəm. Hər ağacdan yaxşı saz düzəltmək mümkün deyil. Gərək işlədəcəyin ağac materialı keyfillyət baxımından yaxşı olsun, rəngləri də eyni olsun ki, düzəltdiyin sazın hər hissəsi bir rəngdə olmasın. Bu səbəb-

dən bəzən hətta bir yaxşı saz düzəltmək üçün on saz düzəldilə biləcək material işlətməli olursan. Ona görə də atamın emalatxanasında olan ən yaxşı materiallardan istifadə etmişdim. Düzü, üzümə heç nə deməsə də, hiss edirdim ki, atam onun ürəyincə olacaq saz düzəldə biləcəyimə o qədər də inanmır, işlətdiyim materialları zay edəcəyimi düşünürdü. Amma inadla işimə davam etdim və gözəl bir saz düzəldə bildim. Atam ilk əl işimi bəyəndi və sonradan həmin sazı satanda pulunu da mənə verdi ki, get özünə yaxşı əyin-baş al.

***– Atanız bir ustad sənətkar kimi sizə ən çox nəyi tövsiyə edir, saz düzəldərkən daha çox nəyə diqqət yetirməyi tapşırırdı?***

– Ən birinci tapşırığı, tövsiyyəsi o idi ki, heç zaman pula görə əlinizin işini korlamayın, heç vaxt sənəti pulnan ölçməyin. Deyərdi ki, bəzən kiminsə imkanı olmayıb işinizə dəyərindən az pul ödəsə də, eybi yoxdur, bunun əvəzini Allah başqa yerdən yetirər.

Atam özü də heç vaxt əlinin işinə haram qatmaz, biri az pulu verib deyə, onun işinə barmaqarası yanaşmazdı.

***– Yaxşı saz düzəltmək üçün vacib olan birinci şərt nədir?***

– Yaxşı saz düzəltmək üçün yaxşı iş şəraiti, lazımi alət və avadanlıqlar və bir də təbii ki, yaxşı material olmalıdır. Usta gərək hər şeydən əvvəl işlədəcəyi ağac materialını seçə bilsin, hər ağacdan saz düzəltməsin. Yəni yaxşı sənətkar əvvəlcə materialı seçməyi bacarmalı, sonra işə başlamalıdır. Bu da ustadan böyük qabiliyyət tələb edir. Usta ağaca baxanda bilməlidir ki, bu ağacdan nə çıxar. Bilməlidir ki, bu ağac güneydə (dəmyə yerdə) bitib, yoxsa quzeydə (sulu yerdə). Bunların möhkəmliyində və çəkisində fərq olur. Əlbəttə, dəmyə yerdə bitən ağac daha yaxşıdır.

Sazın çanağında istifadə ediləcək taxtada bunlar mütləq nəzərə alınmalıdır. Amma bəzən görürsən ki, mən də sazbəndəm deyən biri hansısa ustadın düzəltdiyi sazı götürüb yüzdə yüz hər şeyi (taxtanın qalınlığını və s.) eynilə təkrarlayır. Daha nəzərə almır ki, bu ağac hansı mühitdə böyüyüb, onun taxtasının möhkəmliyi, çəkisi necədir... Yəni müxtəlif ağaclardan taxtanı eyni qalınlıqda yonmaq olmaz. Məsələn, quzeydə bitən ağacdan alınan taxta güneydə bitən ağacınkına nisbətən nazik olmalıdır. Ağacın yaşından da çox şey asılıdır. Ağacın yaşı nə qədər çox olarsa, o qədər yaxşı saz alınır ondan. Atam saz düzəldərkən istifadə etdiyi tut ağacının yaşı ən azı 80-100 il olardı.

***– Bəs, saz düzəldərkən istifadə olunan qoz ağacında nəyə diqqət yetirilməlidir?***

– Qoz ağacında da tutda olduğu kimi, ağacın quzeydə, yaxud güneydə bitməsinə diqqət yetirilməlidir. Güneydə bitən ağac yaxşı qaralır, qurutduqdan sonra istədiyin formada qalır. Quzeydə bitən ağaclar isə sulu olduğundan yaxşı qaralmır, əyilməyə meylli olur. Adicə barmağın tərindən canına su çəkir.

Bir də gərək ağac yazda torpaqdan canına su çəkməmiş kəsilsin.

***– Yeri gəlmişkən, sazın çəkisi normalda nə qədər olmalıdır?***

– Təmiz qara sazın normal çəksi onun ölçülərindən asılı olaraq 700 qramdan 1.100 qramadək olur. Balaca sazın çəkisi isə 300-400 qram olmalıdır.

***– Bu sənəti seçdiyinizə görə peşman deyilsiniz ki?***

– Allah eləməsin! Ellərimiz var olsun! Heç bir narazılığımız və narahatçılığımız yoxdur.

***– Sazbənd kimi hansı çətinliklərlə üzləşirsiniz? Bu sənətlə ailəni dolandırmaq mümkündürmü?***

– Pis deyil, dolanırıq. Həm atamızın sənətini yaşadırıq, həm də, şükür Allaha, dolanışıq çıxır. Ellərimiz var olsun, hər yerdə bu sənətə qayğı var. Dövlətin qayğısı isə bizi daha da ruhlandırır. Yeri gəlmişkən qeyd edim ki, hələ 1978-ci ildə atam ulu öndərimiz Heydər Əliyevlə görüşmüşdü. İki il bundan əvvəl isə Novruz şənliklərində mən möhtərəm prezidentimiz cənab İlham Əliyevlə görüşdüm.



***Şəkildə: usta Xudu və oğlanları Fərman, Arif və Aydın***

Narahatlığımız əsasən emalatxana sarıdandır. Doğrudur, pis-yaxşı emalatxanamız var. Amma elə sazbəndlər də var ki, heç bu da yoxdur, yaşadığı mənzilin bir otağından emalatxana kimi istifadə edir. Arzumuz budur ki, şəhərin mərkəzində sazbəndlər üçün emalatxana-dükan açılsın. Bu, həm də sənətin təbliği deməkdir. Axı, paytaxtımıza dünyanın hər yerindən qonaqlar gəlir və onların əksəriyyəti şəhərimizin daha çox qədimi yerlərini görmək istədikləri kimi, həm də milli musiqi alətlərimizə böyük maraq göstərirlər. Əgər belə bir emalatxana yaradılarsa, ölkəmizin qonaqları və yerli sakinlər tez-tez bura baş çəkər, işimizlə tanış olub bəyəndikləri sazı da alarlar.

Harda saz var, aşıq varsa orda usta Xudunu yaxşı tanıyırlar. Hətta Amerika, İngiltərə, Almaniya, Fransa və digər ölkələrdən gəlib bizim sənətlə maraqlananlar olur. İndi bir anlığa təsəvvür edin, hanısısa xarici ölkədən gəlmiş bir qonağın ürəyindən keçir ki, saz emalatxanasına, saz dükanına da baş çəksin. Bu zaman onları hara aparaq?

Son illərdə aşıq sənətinə dövlət səviyyəsində qayğı və diqqətin artırılması, Xalq şairi Z.Yaqubun AAB-yə sədr seçilməsindən sonra bu qurumun fəaliyyətinin canlanması bizdə belə bir inam yaradır ki, bu istəyimiz də reallaşacaq.

– ***Son vaxtlar aşıq sənətinə meylin güclənməsi göz önündədir. Təbii ki, bu sənətə marağın güclənməsi həm də saza tələbatın güclənməsi deməkdir. Bəs, gənclər arasında sazbənd olmaq istəyənlər necə, çoxalıbmı?***

– Sazbəndlər çoxdur. Aşıq sənətinin daha geniş yayıldığı bölgələrin hamısında sazbəndlər var. Amma yeniyetmələr arasında meyil sazbəndlikdən çox, ifaçılığadır. Şəxsən mənə müraciət edən olmayıb ki, övladıma sazbəndlik öyrət.

– ***Sənətin bu günkü durumu sizi qane edirmi, sabahını necə görürsünüz?***

– Bu gün aşıq sənəti çox böyük inkişaf yolundadır. İndi aşıqlarımız tez-tez xarici ölkələrdə keçirilən beynəlxalq festival və digər tədbirlərdə uğurla çıxış edirlər. Elə mən özüm də iki il bundan əvvəl düzəltdiyim sazlarla Türkmənistanda keçirilən beynəlxalq sərgidə iştirak etdim.

Respublikamızın birinci xanımı M.Əliyevanın muğam kimi, aşıq sənətinə də böyük qayğı göstərməsi də öz bəhrəsini verməkdədir.

***- Usta Xudunun oğlu olmaq sizin üçün nə deməkdir?***

- Usta Xudunun oğlu olmaq üzərimizə böyük məsuliyyət qoyur. O adın ucalığını qorumağı, onun adına layiq yaşamağı və işləməyi tələb edir.

# İXTİYAR SEYİDOV



İxtiyar Mircəfər oğlu Seyidov 1966-cı il dekabrın 18-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kükü kəndində anadan olub. Hələ uşaqlıdan sazın ecazkar səsi onu valeh edib. Orta məktəbdə oxuyarkən bir gün Kükü kənd mədəniyyət evinin yanından keçəndə yenə saz səsi eşdib və ora yaxınlaşaraq xəlvəti qulaq asmaq istəyib. O günləri İxtiyar Seyidov belə xatırlayır:

"Elə bir az qulaq asmışdım ki, birdən içəridən bir səs gəldi:

- "Ay bala, o kimdir, gəl içəri".

Mən içəri keçdim və gördüm ki, Aşıq Fərrux saz çalır.

Əli ilə mənə işarə etdi ki, yaxına gəl.

Mən çəkinə-çəkinə ona tərəf yaxınlaşdım və o məndən soruşdu ki, nə üçün gəlmişən. Mən də dedim ki, saza qulaq asmaq üçün gəlmişəm.

Aşıq Fərrux bir az saz çaldı, sonra sazı mənə tərəf tutaraq “Al çal görüm”, - dedi.

Dizlərim titrədi, bir anlığa dünya başıma fırlandı.

- Qorxma, al çal, - deyə Aşıq Fərux yenə dilləndi.

Əllərim titrəyə-titrəyə sazı aldım. Qəribə hisslər keçirirdim, bilirdim ki, əlimdəki saz ən müqəddəs bir şeydir.

Ancaq nə qədər çalışsam da, onu çala bilmədim.



Beləliklə, sazın dərdi məni xəstə etdi. Gecə-gündüz bu dərd məni qoymadı rahat olam. Həyətimizdə qurumuş bir qoz ağacı var idi, bir gün onu xəlvəti kəsərək səhərə qədər ondan bir balaca saz düzəltdim və telefon xəttindən 3 tel kəsərək bu saza bağladım. Havalar çox soyuq olduğundan artıq hiss edirdim ki, özüm üçün gizli bir yer tapıb işimi sona çatdırmalıyam. Belə qərara gəldim ki, anam çörək yapıb qurtarıb, təndir indi isti olar, gedim orada isinim və işimi qurtarım. Belə də etdim. Soyuq dekabr ayı idi. Gecəni səhərə qədər orada qaldım və sazı çalmağa baş-

ladım. İlk dəfə "Apardı sellər Saranı" xalq mahnısını həmin günü öyrəndim".

Aşıqlığa və sazbəndliyə gəlişinin səbəbini belə izah edən İxtiyar elə o vaxtdan bu sənətlə məşğul olmağa başlayıb. Bu sahədə bildiklərini və təcrübəsini möhkəmləndirmək üçün ustad aşıqlardan məsləhət alıb. Onun məsləhət aldığı aşıqlardan biri də Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yaşayan Sərraf Qasım olub. O, İxtiyara usta Xudunun haqqında çox maraqlı söhbətlər edib və sazı necə düzəltməyin sirlərini öyrədib.

Sonradan sazın tarixi də onu maraqlandırdığından qədim musiqi alətlərindən qopuz, çoğur, tənbur, bərbət, rübab, ud, çəğanə, ney, çəng və digərlərinin bərpası ilə məşğul olmağa başlayıb.

Ötən əsrin 80-ci illərindən sazın təmiri və istehsalı ilə məşğul olmaqla yanaşı, konsertlərdə və dövlət tədbirlərində də çıxış etməyə başlayıb. 1990-1998-ci illərdə Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzində saz dərnəyi yaradaraq bir filalını da Şahbuz rayonunun Kükü kəndində açıb. 30-dan artq şagirdə sazın sirlərini təmannasız öyrətməkdən böyük mənəvi zövq alıb.

İ.Seyidov 1998-ci ildə Naxçıvan Dövlət Universitetinə daxil olub. 2000-ci ildən indiyə qədər Naxçıvan Musiqi Kollecində saz ixtisası üzrə pedaqoji fəaliyyətlə məşğul olur.

1998-ci ildə onun düzəltdiyi bir neçə musiqi aləti Naxçıvanda 4 dəfə baxışdan keçərək Bakı şəhərinə göndərilib və burada da 3 dəfə baxışdan keçirilərək mədəniyyət nazirliyinin Fəxri Fərmanına və mükafata layiq görülüb.

1999-cu ildə Türkiyənin Bayburt şəhərihdə keçirilən "Dede Qorqud-1300" festivalında, 2003-cü ildə Bakı

şəhərində keçirilən “Beynəlxalq Asiya bayramı”nda iştirak edib.

Azərbaycan aşıqlaqrının 5-ci qurultayının nümayəndəsi olub, 2010-cu ildə respublikamızda keçirilən I Beynəlxalq Aşıq Festivalının iştirakçısı kimi Diploma layiq görülüb.

O, ictimai və pedaqoji fəaliyyətlə yanaşı, bu gün də sazbənd kimi fəaliyyət göstərir. Məhz onun sayəsində muxtar respublikada saza olan tələbat qismən də olsa təmin olunur. Onun düzəltdiyi sazlardan xarici ölkələrə aparılanı da az deyil.

İ.Seyidov eyni zamanda 2009-cu ilin dekabr ayından Naxçıvan Aşıqlar Birliyinin sədridir.

***Maarif Təmkin***

## İXTİYAR

Ustad iyi verən sədəfli sazın,
Ən yaxın həmdəmi olam, İxtiyar.
Ərköyün gözəl tək götürəm nazın,
Onun qadasını alam, İxtiyar.

Alışan dərdlərə eyləyə çara,
Tuta əllərimdən, özü apara.
Yaylaq həsrətiylə nalə qopara,
Mən də xəyallara dalam, İxtiyar.

Çox dəymədüşərdi, təbiət kimi,
Vüsala susayan məhəbbət kimi,
Gərək ən müqəddəs ziyarət kimi,
Səcdəmi mən ona qılam, İxtiyar.

Anlamaz naşıyla ölüncə pəsəm,
Simlər arasında naləyəm, səsəm.
Gərək harayına dözə bilməsəm,
Körpə uşaq kimi dolam, İxtiyar.

Min ildir yaşayır elin huşunda,
Elə bil dilini bilir daşın da.
Kaş ki bir obada, ocaq başında,
Onunla təkbətək qalam, İxtiyar.

Maarifəm, tək bircə havasın çalsam,
Namərdəm, Kərəmtək oda yanmasam,
Kaş bir sazım ola, bağrıma basam,
Sənin şərəfinə çalam, İxtiyar.

# AYDIN MAHMUDOV



Aydın Xudaverdi (Xudu) oğlu Mahmudov 1968-ci il iyulun 2-də Tovuz rayonunun Yanıqlı sovetliyinə daxil olan Məşədilər kəndində məşhur sazbənd usta Xudunun ailəsində anadan olub. 1975-ci ildə Məşədilər kənd orta məktəbinin birinci sinfinə daxil olub və 1985-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirib. 1986-cı ilin sentyabrında hərbi xidmətə çağırılıb və iki il orduda xidmət etdikdən sonra 1988-ci ilin sentyabrında tərxis olunaraq vətənə qayıdıb və elə həmin ildən də iki il Aşıqlar Birliyinin Gəncə şöbəsinin nəzdində təhsil alaraq solo saz ifaçılığını mənimsəyib. 1993-cü ildən Məşədilər kənd orta məktəbində bədii özfəaliyyət dərnəyinə rəhbərlik edib.

Aydın Mahmudov 1997-ci ildən Daxili İşlər nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsində xidmət edir. Xidmət etdiyi kollektivdə nümunəvi xidməti və fəallığı ilə seçilən Aydın dəfələrlə rəhbərlik tərəfindən mükafatlandırılıb.

Əsas işi ilə yanaşı, Aydın həm də atası usta Xudunun sənətini yaşadır, boş vaxtlarında qardaşı Fərmanla birlikdə saz düzəltməklə məşğul olur.

# XƏTAİ ƏLƏSGƏRLİ



Xətai İslam oğlu Ələsgərli 1968-ci ildə Göyçə mahalının Ağkilsə kəndində ulu ozanımız Aşıq Ələsgərin ocağında – bu böyük ustadın nəvəsi, görkəmli folklorşünas alimimiz İslam Ələsgərin ailəsində anadan olub. Səkkizillik təhsilini doğma kəndində, orta təhsilini isə qonşu Zod kəndində alıb.

Xətai Ələsgərli 1986-cı ildə Sovet ordusunda hərbi xidmətə çağırılıb, keçmiş SSRİ-nin Almaniyadakı hərbi kontingentinin tərkibində xidmət edib. Hərbi xidmətə yola düşərkən heç ağlına da gəlməzdi ki, iki ildən sonra ordudan tərxis olunanda artıq ulu Göyçəyə, doğma Ağkilsəyə dönə bilməyəcək. Bəli, 1988-ci ildə o, hərbi xidmətini başa vuranda artıq qəsbkar qonşularımızın əsassız torpaq iddiaları sayəsində nəinki təkcə Göyçədə, eləcə də bu gün Ermənistan adlanan qədim türk torpağında bircə nəfər də olsun soydaşımız qalmamış, dədə-baba yurdlarından min bir işgəncələrlə qovulmuşdular. Bu səbəbdən Xətainin ailəsi də məcburən öz dədə-baba yurdlarını tərk edərək Bakıda məskunlaşmışdılar.

Ordudan tərxis olunub Bakıya gələn Xətai burada bir müddət müqəddəs musiqi alətimiz olan saz düzəltməklə məşğul olub, eyni zamanda Neft Akademiyasında təhsil alıb, 1998-ci ildə ali təhsilini başa vurub.

Xətai Ələsgərli hazırda "Azecell"in nəzdindəki "Piramida" şirkətində fəaliyyət göstərir.

## QƏRİB ADIGÖZƏLOV



Qərib Əli oğlu Adıgözəlov 1969-cu il may ayının 3-də Borçalıda – Bolnisi rayonun Dəllər (Muşevan) kəndində andan olub. Gözünü açandan sazın laylası ilə böyüyüb, böyüdükcə özü də bu sənətə vurulub və bu vurğunluq ona gətirib çıxarıb ki, o, taleyini bu sənətlə bağlayıb. Sazbənd olmaq qərarına gəlib və bu sənətlə bağlı bildiklərini daha da təkmilləşdirmək üçün bir ustaddan dərs almaq üçün 1993-cü ildə özünün həmyerlisi, təkcə Borçalıda yox, Azərbaycanda və onun hüdudlarından kənarda da aşıq-sazbənd kimi yaxşı tanınan Murad Kövrəyə şəyirdlik etməyə başlayıb. Altı il ona qulluq edərək sazbəndlik sənətinin sirlərinə yiyələnib.

Ustadı Kövrək Muradın xeyir-duasından sonra 1999-cu ildən müstəqil fəaliyyətə başlayan Qərib Əli oğlu bu gün sazbənd kimi fəaliyyətini davam etdirir və bu sahədə qazandığı uğurlara görə ilk növbədə ustadına minnətdarlıq edir.

## ETİBAR QASIMOV



Etibar Hüseyn oğlu Qasımov 1969-cu il dekabr ayının 19-da Kəlbəcər rayonunun Zəylik kəndində anadan olub. 1987-ci ildə həmin kənddə orta məktəbi bitirb və elə həmin ilin dekabrında orduda xidmətə çağırılıb. İki il orduda xidmət etdikdən sonra 1989-cu ildə ordu sıralarından tərxis olunub.

1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunduqdan sonra ailəsi ilə birlikdə Şəmkir rayonunda məskunlaşıb və elə o vaxtdan da atasının köməkliyi ilə sazbəndlik sənətinə yiyələnib.

Hal-hazırda Gəncə şəhərindəki Gülüstan qəsəbəsində yaşayan Etibar Hüseynov sazbənd kimi fəaliyyətini davam etdirir.

# ASİF QULİYEV



Asif Əliş oğlu Quliyev 1971-ci il avqustun 2-də Kəlbəcərdə aşıq-sazbənd Əliş Quliyevin ailəsində anadan olub. 1978-ci ildə Kəlbəcərdəki 1 saylı orta məktəbin birinci sinfinə gedib, 1988-ci ildə həmin məktəbi bitirib.

Orta məktəbdə oxumaqla yanaşı, o, eyni zamanda 1982-ci ildə Kəlbəcər musiqi məktəbinin tar üzrə birinci sinfinə daxil olub və 1987-ci ildə həmin ixtisas üzrə 5-ci sinfi bitirib.

Asif Quliyev doğma yurdunun işğalından sonra Gəncədə məskunlaşıb. 1992-1997-ci illərdə Qəmbər Hüseynli adına musiqi texnikumunda təhsil alıb. Hazırda Kəlbəcər şəhər İncəsənət məktəbində ixtisasına uyğun olaraq tar müəllimi işləyir.

Yuxarıda da qeyd etdiyimiz kimi, atası Əliş kişi həm aşıq, həm də sazbənd olub, onun düzəltdiyi sazlara bu gün Azərbaycanın hər bir yerində rast gəlmək olar. Kəlbəcər ermənilər tərəfindən işğal olunanda Əliş kişinin saz emalatxanası ilə bərabər düzəltdiyi bir neçə saz, yarımçıq işləri də orda qalıb.

Asifin aşıq sənətinə, sazbəndliyə bağlanmasında atasının böyük rolu olub. Hazırda onun özünün şəxsi emalatxanası var və Gəncə və ətraf bölgələrdə sazbənd kimi yaxşı tanınır. Emalatxanasındakı avadanlıqların müasir olması onun daha keyfiyyətli saz düzəltməsinə imkan verir. Yeri gəlmişkən qeyd edək ki, o, sazla yanaşı tar, kamança, ud, kanon, santur, müxtəlif gitaralar və skripka da düzəldir. Düzəltdiyi musiqi alətləri respublikamızdakı musiqi alətləri mağazalarında satılır, hətta xarici ölkələrə də aparılır.

## SÖHRAB SÜLEYMANOV



Söhrab Süleyman oğlu Süleymanov 1974-cü il dekabrın 25-də Kəlbəcər rayonunun Ağcakənd kəndində ziyalı ailəsində anadan olub. Atası Süleyman kişi mədəniyyət işçisi olmaqla yanaşı, həm də sazbənddir.

S.Süleymanov orta təhsilini doğma kəndində alıb – 1991-ci ildə Ağcakənd orta məktəbini bitirib.

Saz-söz mühitində böyüyən Söhrab özü də hələ uşaqlıqdan saza-sözə bağlanıb, 1984-cü ildən Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evində atası Süleyman Süleymanovun rəhbərlik etdiyi "Kilimarası" folklor kollektivində çıxış etməyə başlayıb, 1987-ci ildə keçmiş SSRİ üzrə Moskva şəhərində keçirilən Ümumittifaq folklor festivalının laureatı olub.

Erməni işğalçılarının torpaqlarımıza təcavüzü zamanı öz sazı ilə tez-tez döyüş bölgələrinə gedərək əsgərlərimizi ruhlandırıb. 1992-ci ildə isə özü də milli ordumuzda xidmətə çağırılıb və cəbhə xəttində xidmət edib.

Kəlbəcər rayonu erməni qəsbkarları tərəfindən işğal olunduqdan sonra müvəqqəti olaraq Yevlax rayonunun Kövər kəndində məskunlaşıb. Hal-hazırda aşıqlıqla yanaşı sazbəndliklə də məşğul olur. Aşıqlıqda Hidayət Əkbərovu, sazbəndlikdə isə atası Süleyman Süleymanovu özünə ustad hesab edir.

# İMAMƏLİ BUDAQOV



İmaməli Qiyas oğlu Budaqov 1980-ci il iyunun 9-da Borçalıda – Bolnisi rayonunun Kəpənəkçi (rəsmi sənədlərdə Kvemo Bolnisi) kəndində anadan olub. 1987-ci ildə bu kənddəki 1 saylı orta məktəbin birinci sinfinə daxil olub, 1998-ci ildə orta təhsilini başa vurub. Hələ uşaqlıqdan saza-sözə vurulub və bu həvəsi ötəri olmayıb, onu bu sənətə gətirib çıxarıb. Bir aşıq kimi yetişməsində unudlmaz sənətkar Kamandar Əfəndiyevin tövsiyələrinin böyük rolu olub.

İmaməli Budaqov aşıqlıqla yanaşı, həm də sazbəndliklə də məşğul olur. Sazbəndliyi atası Qiyas kişidən öyrənib.

2007-ci ildən Bakıda yaşayıb fəaliyyət göstərən İmaməli burada özünə emalatxana quraraq sazbənd kimi fəaliyyətini davam etdirir. Eyni zamanda gənclərə aşıqlıq sənətinin sirlərini də öyrədir.

## MÜNDƏRİCAT

**Z.Yaqub.** Sazbəndlərimizə böyük ehtiram ..................3
Müəllifdən ..........................................................5
Xalqımızın qədim və ölməz sənəti – sazbəndlik...........7
Məhəmmədəli Məhərrəmov ....................................15
Kərəm Musayev ...................................................19
Məhəmməd Bayramov ...........................................20
Mustafa Vəliyev ...................................................21
İsmayıl Mahir .......................................................26
Dünyamalı Xəlilov ................................................27
Yunis Musayev......................................................29
Novruz Şairov ......................................................31
Aslan Kosalı .........................................................33
Ayaz Zülfüqarov...................................................37
Əli Abbasov..........................................................38
Xudu Mahmudov...................................................40
Yəhya Məmmədov ................................................42
Vəli Əmrahov .......................................................43
Novruz Bayramov ................................................44
Yəhya Çobanov ....................................................45
Haqverdi Nadirov .................................................47
İslam Məmmədov..................................................48
Əliş Quliyev .........................................................49
Valeh Bayramov ...................................................50
Pənah Qurbanov ...................................................51
Tapdıq Saleh oğlu.................................................54
Sazbənd Qəzənfər.................................................55
Süleyman Süleymanov ..........................................61
Hüseyn Hüseynov.................................................64

Paşa Hüseynov ....................................................65
Elbəyi Xəlilov....................................................68
Cabbar Cabbarov ....................................................71
İsgəndər Budaqov....................................................74
Murad Kövrək ....................................................76
Bəkir Əhmədov ....................................................82
Nizami Zülfüqarov ....................................................84
Atlıxan Alxanov....................................................85
Qürbət Yusifov....................................................87
Həsən  Dəryahquliyev ....................................................88
Sabit Məmmədov ....................................................92
Elbrus Allahverdiyev....................................................94
Rizvan Qurbanov....................................................95
Nemət Zeynalov ....................................................100
Bafəli Adıgözəlov....................................................102
Valeh Məmmədov....................................................109
Şahniyar Əsədov....................................................110
Məcnun Məmmədov ....................................................111
Valeh İsmayılov ....................................................113
Böyükağa Vicudi (Piroğlu) ....................................................114
Fərman Mahmudov ....................................................116
İxtiyar Seyidov ....................................................125
Aydın Mahmudov....................................................130
Xətai Ələsgərli ....................................................131
Qərib Adıgözəlov ....................................................132
Etibar Qasımov....................................................133
Asif Quliyev ....................................................134
Söhrab Süleymanov....................................................135
İmaməli Budaqov....................................................136

Texniki redaktor:  Elşad Çobanlı

TİRAJ 1200